www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Həftəlik qəzet 6-12 may 2026-cı il Çərşənbə № 17 (8866) Qiymәti 1 manat

**Xəbər**

## Azərbaycanda ana ölümləri - regionlar üzrə statistika

yazısı səh.14-də

**Ölkə**

### Anakliya limanı "Tramp marşrutu"na qarşı



Gürcüstan yolu yükdaşımalarda inhisar yaradıb - ekspertdən gözlənti

yazısı səh.5-də

### Ümumdünya Kilsələr Şurasının gözündəki "tor"

yazısı səh.13-də

### Bakının Efiopiya ilə sazişinin pərdəarxası

yazısı səh.8-də

### Avropa İttifaqı Zəngəzur dəhlizindən pay istəyir

yazısı səh.9-da

### Dünya Bankının xəbərdarlığı - Azərbaycan risk qrupunda

yazısı səh.3-də

### YAP-ın ertələnən qurultayı-kulislərdə danışılanlar...

yazısı səh.4-də

### "Gizli razılaşma" iddiası - 1066 km-dən cəmi 13-ü...

yazısı səh.6-da

### Mətbuat Şurası səfirin müsahibəsinə görə açıqlama yaydı

yazısı səh.14-də

### Azərbaycanın axtardığı şəxs konqresmen olmaq istəyir

yazısı səh.12-də

### Ümrəyə getmək istəyənlər bunları bilməli...

yazısı səh.13-də

### Ankara-İrəvan xəttində yeni mərhələ

yazısı səh.6-da

### Bakının xilaskarı Nuri Paşanın sirli ölümü

yazısı səh.14-də

### Kirayədə yaşayanlara dövlət ev verəcək?

yazısı səh.15-də

# "İRAN FEDERATİV RESPUBLİKASI" PLANI YENİDƏN MASADA

## ABŞ-nin nüfuzlu "Council on Foreign Relations" platforması:

"Azərbaycan türkləri, ərəblər, kürdlər..."




yazısı səh.5-də

# "Mehdiyev işi"ndə yeni gəlişmə

"Hürriyyət" qəzetinin baş redaktoru Vüqar Məmmədovun vəkili bildirib ki, müvəkkilinin işi PA-nın sabiq rəhbərinin cinayət işindən ayrılıb

yazısı səh.4-də



### "Persona"da bu dəfə: Meloninin kədərli hekayəsi

yazısı səh.7-də



### Paşinyan üçün kritik dövr başladı

yazısı səh.12-də



*Üzeyir Şəfiyev:*

### "Bakıda evlərdə heyvanı qeyri-azərbaycanlılar saxlayardı, indi isə..."

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 17 (8866) 6 may 2026



## Çunqonq Bakıya niyə gəlib?

**Prezident İlham Əliyev mayın 5-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edib. Söhbət zamanı dövlətimizin başçısının Martin Çunqonqla görüşləri məmnunluqla xatırlanıb. Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirib.**

Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Vaşinqtonda sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətləri qeyd edərək, ölkələrimiz arasında artıq iqtisadi-ticari münasibətlərin başladığını və Azərbaycanın birtərəfli qaydada Ermənistana gedən tranzit yüklər üzərindəki məhdudiyyəti aradan qaldırdığını bildirdib. Söhbət zamanı Azərbaycanla Parlamentlərarası İttifaq arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub.

Baş katib Azərbaycanın Parlamentlərarası İttifaqın işində fəal iştirak etdiyini deyərək, ölkəmizin parlamentlərarası dialoqa verdiyi töhfəyə toxunub.

Görüşdə işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, həmçinin Azərbaycanın mina problemindən əziyyət çəkməsi, minaların mülki insanlara və quruculuq prosesinə törətdiyi maneələr vurğulanıb, əməkdaşlığın mövcud vəziyyəti, əlaqələrin perspektivləri və parlamentlərarası dialoqun inkişafı ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycanlı ekspertlər İrəvanda



**Azərbaycanlı ekspertlər "İrəvan Dialoqu 2026" beynəlxalq konfransında iştirak etmək üçün Ermənistan paytaxtına gediblər.**

Modern.az xəbər verir ki, bu barədə Ermənistan mediası məlumat yayıb.

Konfransın gündəliyinə əsasən, "İrəvan Dialoqu 2026" beynəlxalq konfransında azərbaycanlı politoloqlar Fərhad Məmmədov, Rusif Hüseynov və Zaur Şiriyev də iştirak edəcəklər. Onlar "Sülh Körpüsü" təşəbbüsünün üzvləridir.

## Bu məktəblərə yeni direktorlar təyin olundu



**Ölkə üzrə mərkəzləşdirilmiş qaydada keçirilən müsabiqənin nəticələrinə əsasən, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən, şagird sayı 500-dən artıq olan ümumi təhsil müəssisələrində vakant direktor vəzifələrinə yeni təyinatlar həyata keçirilib.**

Müsabiqənin müsahibə mərhələsi çərçivəsində 4 vakant vəzifə üzrə ümumilikdə 11 namizəd müraciəti qeydə alınıb. Müsabiqənin seçim mərhələsi başa çatdıqdan sonra ardıcıllıq gözlənilməklə müsahibə mərhələsinə dəvət olunmuş 6 nəfər iştirak hüququ qazanıb. Müsahibə zamanı namizədlərin liderlik və strateji idarəetmə, pedaqoji fəaliyyət, təşkilatçılıq və idarəçilik, ünsiyyət və əməkdaşlıq, problemlərin həlli və qərarvermə, eləcə də rəqəmsal, texnoloji, sosial və emosional bacarıqları qiymətləndirilib. Nəticədə uğut qazanmış 6 nəfər - Həsənov Həsən Məmməd oğlu Heydər Əliyev adına tam orta məktəbə, Quliyeva Günel Mirməhəmməd qızı Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbinə, Əliyev Səfa Ruhulla oğlu Şərur şəhər 2 nömrəli tam orta məktəbinə, Cəfərova İlahə Aydın qızı isə Kəngərli rayonunun Qıvraq qəsəbə tam orta məktəbinə direktor vəzifəsinə təyin olunublar.

## Qubada rus mənşəli kəndlərin adları dəyişdirilir




**Qubada üç kəndin adı dəyişdirilir. Bu barədə qanun layihəsi mayın 5-də Milli Məclisin Regional məsələlər komitəsinin iclasında müzakirəyə çıxarılacaq.**

Layihəyə əsasən, Qubanın Vladimirovka kəndi Elbir, Alekseyevka kəndi Çinarlı, Timiryazev kəndi isə Bəhrəli adlandırılacaq.("Qafqazinfo")

# İşləyənlərin pensiyası nə qədər artacaq?



**Prezident İlham Əliyevin imzaladığı "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Sərəncamla bu ilin əvvəlindən bütün növ əmək pensiyaları indeksləşdiriləcək artırıldı. 1 milyon 100 min vətəndaşımızı əhatə edən artımlar əvvəlki ildəki orta aylıq əməkhaqqındakı artım faizinə uyğunlaşdırıldı.**

Bu haqda **deputat Vüqar Bayramov** yazıb.

Bəs bu il işləyən vətəndaşlarımızın pensiyaları nə qədər artırılacaq?

Deputat bununla bağlı bildirib ki, mövcud qanunvericiliyə əsasən, yaşa görə əmək pensiyası təyin edildikdən sonra işləməyə davam edən pensiyaçıların pensiyası sonradan toplanmış kapitala uyğun olaraq 6 ildən sonra yenidən hesablanaraq pensiyaya əlavə olunur: "6 ildən sonra vətəndaşın fərdi hesabının sığorta hissəsində ödənilən məcburi dövlət sosial sığorta haqlarının 90 faizi nəzərə alınmaqla pensiya kapitalı qeydə alınır. Pensiyada yeni artım üçün işlədiyi dövr üzrə toplanmış pensiya kapitalı 72-yə (144 - 72 (pensiya təyin edilən tarixdən sonra işlədiyi ayların sayı) bölünməklə pensiya məbləği yenidən hesablanır. Bununla yanaşı, işləyən vətəndaşlarımızın pensiyalarında bu il iki dəfə artım mümkündür. Həmin şəxsin aldığı pensiya mövcud qaydalara əsasən 9.3 faizə indeksləşdiriləcək artırılır. Daha sonra onun 6 illik iş müddəti tamamlanırsa, pensiyasına əlavə olunur.

Məsələn, vətəndaşımıza 1 may 2020-ci il tarixində yaşa görə ümumi əsaslarla əmək pensiyası təyin edilib və şəxs işləməyə davam edib. 2025-ci ilin sonunda həmin vətəndaşımızın pensiya məbləği 800 manat olub. Onun pensiya məbləği 1 may 2026-cı il tarixində pensiya təyin edildikdən sonra 6 il işlədiyi üçün yenidən hesablanır. Şəxsin fərdi hesabının sığorta hissəsində bu müddətdə 25200 manat (ödənilən məcburi dövlət sosial sığorta haqlarının 90 faizi nəzərə alınmaqla) pensiya kapitalı qeydə alınıb. Bu halda şəxsin həmin dövr üzrə toplanmış pensiya kapitalı (25200 manat) 72-yə bölünməklə pensiya məbləği yenidən hesablanır. Bu o deməkdir həmin şəxsin pensiyasına 350 manat əlavə olunur. Amma həmin vətəndaşımız əmək pensiyası aldığına görə onun pensiyası yanvarın 1-dən indeksləşdirilib. Bu ilin may ayında həmin şəxsin yeni pensiya məbləği belə olur: 800 manat + 74.4 manat (800 manat X 9.3 %) + 350 manat = 1224.4 manat.

Göründüyü kimi, əmək fəaliyyəti davam edən pensiyaçılarımız işləməkdə davam edərlərsə və 6 il iş müddəti bu il tamam olarsa, o zaman həm indeksasiya artımından, həm də yenidən hesablanma artımından faydalana bilər".

## Dini ekstremist materiallar yayan şəxsə hökm oxundu



**Dini ekstremist materialların hazırlanması, saxlanılması və yayılması, habelə dini nifrət və düşmənçiliyin salınmasında təqsirləndirilən Orxan Fazil oğlu Sayadov barəsində cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA xəbər verir ki, Gəncə Şəhər Məhkəməsində hakim Liza Xanməmmədovanın sədrliyi ilə keçirilən prosesdə hökm elan olunub.

Hökmə əsasən, təqsirləndirilən şəxs 5 il müddətinə azadlıqdan məhrum edilib. O, cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkəcək.

İttihama görə, Orxan Sayadov barəsində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 167-3.1-ci (dini ekstremist materialları hazırlama, saxlama və ya yayma) və 283.1-1-ci (dini nifrət və düşmənçiliyin salınması dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədildikdə) maddələri ilə ittiham irəli sürülüb.

## Qurban bayramında ətin bahalaşacağı anonsu



**Qurban bayramı ərəfəsində ət və qurbanlıq heyvanın qiyməti hər il artır. Bu il də eyni halın yaşanması gözlənilir. Bayram bu il 27-28 may tarixlərinə təsadüf edir. Bayrama yaxınlaşdıqca tələb çoxaldığı üçün qiymətlər də yüksəlir.**

Bunu Bizim.media-ya açıqlamasında Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli deyib. O bildirib ki, keçən illə müqayisədə bu il yem, dərman, nəqliyyat və saxlama xərcləri təxminən 20 faiz bahalaşıb: "Fermerlər də heyvanı kəsimə vermək əvəzinə qurbanlıq kimi satmağa üstünlük verir. Ona görə bazarda ət azaldıqca qiymət qalxır. İlkin proqnozlara görə 2026-cı ildə Bakı və ətrafında qoyunun qiyməti 320 manatdan başlayıb 430 manata qədər, keçi 300-400 manat, dana isə 2600 manatdan 4200 manata qədər olacaq. İribaş heyvanı 7 nəfər şərik kəssə, bir nəfərə təxminən 400-600 manat xərc düşəcək. Qəssabxanalarda da qiymət qalxır. İndi 16-18 manata olan mal əti bayramqabağı 19-22 manata, 18-20 manata olan qoyun əti isə 22-25 manata çata bilər. Bayram günü və ondan sonrakı iki gündə qiymətə əlavə 1-2 manat da gələ bilər. Qiymət artımından yayınmaq üçün heyvanı bayramdan 2-3 həftə əvvəl almaq sərfəlidir, çünki son günlər 10-15 faiz baha satılır. Rayonlardan gətirilən heyvanlar da Bakıdakıdan bir az ucuz olur. Bir neçə ailə birləşib dana alsa, hissəbaşı 50-100 manat qənaət etmək mümkündür. Vəkil ilə kəsim də variantdır, onun qiyməti təxminən 800-850 manat civarında olacaq. Ümumilikdə 2026-cı ildə qurbanlıq və ət keçən ilə nisbətən orta hesabla 15-25 faiz bahalaşacaq. Əsas səbəb xərclərin artması və bayramqabağı tələbin çoxalmasıdır".




## Qarabağ Universitetində magistratura təhsili olacaq?

**Hazırda Qarabağ Universitetində magistratura səviyyəsi üzrə qəbul aparılmır. Bu barədə Milli.az-ın sorğusuna cavab olaraq Qarabağ Universitetindən bildirilib. Qeyd olunub ki, 2026-2027-ci tədris ili üçün magistratura qəbulunun olub-olmayacağı ilə bağlı hələlik rəsmi qərar verilməyib: "Qərar qəbul edildiyi təqdirdə ictimaiyyətə əlavə məlumat veriləcək. Universitet yeni fəaliyyətə başladığı üçün təhsil pillələri ilə bağlı qərarlar mütəmadi olaraq yenilənir".**



## Qəbiristanlıqda tapılan uşağın valideynləri kimdir?

**Abşeron rayonunun Goradil qəsəbəsinin qəbiristanlığında azyaşlı uşağın tərk edilmiş vəziyyətdə tapıldığı bildirilir. Təxminən 2 yaşlı olan uşaq qəbiristanlıq ərazisində, "Fatimeyi Zəhra" məscidinin yaxınlığında yatmış vəziyyətdə aşkarlanıb.**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən bildirilib ki, uşağın valideynlərinin kimliyi artıq müəyyən edilib.

Bildirilib ki, araşdırmanın nəticəsindən asılı olaraq valideynin davranışına hüquqi qiymət veriləcək və zərurət yaranarsa, valideynlik hüquqlarının məhdudlaşdırılması istiqamətində müvafiq addımlar atılacaq.

Eyni zamanda uşağın sağlamlıq vəziyyəti diqqətdə saxlanılır, o, tibbi müayinələrdən keçiriləcək və bundan sonrakı mərhələdə aidiyyəti qurumlarla birlikdə onun təhlükəsizliyi və rifahı üçün kompleks tədbirlər davam etdiriləcək.

YENİ MÜSAVAT
N 17 (8866) 6 may 2026

# Dünya Bankının xəbərdarlığı - Azərbaycan risk qrupunda

## İqtisadçı deyir ki, rəsmi işsizlik 5 faiz göstərilsə də, real vəziyyət fərqlidir




**Dünya Bankı yaxın 10-15 ildə inkişaf etməkdə olan ölkələrdə ciddi işsizlik problemi yaşanacağını bildirir. Mütəxəssislər bir sıra səbəbləri fərqləndirir. Ən öndə gələnlərdən biri süni zəkanın inkişafıdır. Süni zəka xeyli iş yerlərini sıradan çıxaracaq.**

Mütəxəssislər süni zəka, avtomatlaşma ilə yanaşı, əhali artımını, təhsillə əmək bazarı arasındakı uyğunsuzluğu da vacib amillər kimi qeyd edir. Bizimyol.info yazır ki, xüsusilə axırıncı nüans Azərbaycana aiddir: "Ali təhsil müəssisələrindən məzun olanların işlə təminatı çox aşağı səviyyədədir. Hətta buna xüsusi nəzarətin olmadığını qeyd etmək olar. Yəni ayrıca mexanizm yoxdur. Universiteti bitirən şəxslər iş tapmaq üçün dəridən-qabıqdan çıxmalı olur. Ümumiyyətlə, Azərbaycanda işsizliklə bağlı vəziyyət böhran həddindədir. Heç kim inanmır ki, ölkədə işsizliyin səviyyəsi 5 faizdir. Təsəvvür edin, bu göstərici Finlandiyada 11,1, İsveçdə 9,7, Avstriyada 7,5-dir. Dünya Bankının xəbərdarlığına ciddi yanaşmaq lazımdır".

Dünya Bankının yaxın 10-15 ildə inkişaf etməkdə olan ölkələrdə işsizliyin artacağı ilə bağlı xəbərdarlığı təsadüfi deyil və bu, artıq qlobal iqtisadi transformasiyanın başlanğıc mərhələsi kimi qiymətləndirilməlidir. Xüsusilə süni zəka və avtomatlaşma proseslərinin sürətlənməsi əmək bazarında köklü dəyişikliklərə səbəb olur. Bu dəyişikliklər ən çox aşağı və orta ixtisas tələb edən peşələri hədəf alır və həmin sahələrdə çalışan milyonlarla insan üçün real risk yaradır.

Lakin məsələ təkcə texnologiya ilə məhdudlaşmır. Əhali artımı, urbanizasiya və ən əsası təhsil sistemi ilə əmək bazarı arasındakı ciddi uyğunsuzluq vəziyyəti daha da ağırlaşdırır. Bu baxımdan Azərbaycan kimi ölkələr xüsusi risk qrupuna daxildir. Ali təhsil müəssisələrinin məzunlarının böyük hissəsinin ixtisası üzrə iş tapa bilməməsi artıq sistemli problemə çevrilib. Təhsil müəssisələri ilə real sektor arasında əlaqələrin zəif olması, praktiki bacarıqların arxa plana keçməsi gənclərin əmək bazarına inteqrasiyasını çətinləşdirir.

Rəsmi statistikada işsizlik səviyyəsinin aşağı göstərilməsi isə cəmiyyətdə inamsızlıq yaradır. Müqayisə üçün Finlandiya, İsveç və Avstriya kimi inkişaf etmiş ölkələrdə daha yüksək işsizlik göstəricilərinin açıqlanması ilk baxışda paradoksal görünsə də, bu, həmin ölkələrdə statistikanın daha şəffaf və real metodologiya əsasında aparılması ilə bağlıdır. Azərbaycanda isə qeyri-formal məşğulluğun geniş yayılması real mənzərəni gizlədən əsas amillərdən biridir.

Nəticə etibarilə, Dünya Bankının xəbərdarlığı sadəcə qlobal tendensiyanın təsviri deyil, həm də inkişaf etməkdə olan ölkələr üçün ciddi siqnaldır. Əgər təhsil, əmək bazarı və iqtisadi siyasət arasında koordinasiya gücləndirilməzsə, texnoloji dəyişikliklər işsizlik problemini daha da dərinləşdirəcək və sosial-iqtisadi gərginliyi artıracaq.

**Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli "Yeni Müsavat"a deyib ki, Azərbaycanın əmək bazarı süni zəka və avtomatlaşma dalğasına hələ zəif hazırdır və Dünya Bankının xəbərdarlığı bizim üçün xüsusilə aktualdır:** "Hazırlıq səviyyəsi bir neçə istiqamətdə geri qalır. Birincisi, iqtisadiyyatın strukturu risklidir. Azərbaycanda məşğulluğun təxminən 36-38 faizi kənd təsərrüfatı, ticarət, taksi, kuryer, mühafizə, dövlət idarəçiliyi kimi aşağı ixtisaslı və asan avtomatlaşdırılan sahələrdədir. Banklarda kassir, çağrı mərkəzi operatoru, mühasib köməkçisi, sənəd işləri aparan məmurlar, marketlərdə kassirlər süni zəka və proqram təminatı ilə ilk əvəzlənəcək peşələrdir. Sənayedə də böyük hissə neft-qaz və tikintidir. Neft sektoru artıq özü avtomatlaşır, quyularda adam sayı azalır. Tikintidə də dron, 3D çap, modul tikinti gəldikcə fəhlə ehtiyacı düşəcək. Yeni iqtisadiyyatımız bilik tutumlu, yüksək texnologiyalı sahələrə yox, asan əvəzlənən işlərə söykənir".

**Ekspert dedi ki, təhsillə əmək bazarı arasında uçurum var:** "Ali məktəblər hər il on minlərlə hüquqşünas, iqtisadçı, menecer, müəllim buraxır, amma bazarda data analitik, süni zəka mühəndisi, kibertəhlükəsizlik mütəxəssisi, robotexnik, biotexnoloq çatışmır. Universitet proqramları 10-15 il əvvəlin tələblərinə uyğundur. Kodlaşdırma, maşın öyrənməsi, böyük verilənlər, bulud texnologiyaları az sayda yerdə tədris olunur. Peşə təhsili isə nüfuzdan düşüb. Nəticədə diplom var, bacarıq yoxdur. İşəgötürən "təzə məzun heç nə bacarmır" deyir, məzun "iş yoxdur" deyir. Bu uyğunsuzluq süni zəka dövründə daha da dərinləşəcək, çünki süni zəka məhz orta ixtisaslı ofis işlərini yeyir. Üçüncüsü, yenidənöyrənmə mexanizmi yoxdur. Finlandiyada, İsveçdə işini itirən adamı dövlət 6 ay ərzində pulsuz yeni peşəyə öyrədir və işə düzəldir. Bizdə belə sistem qurulmayıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kursları formal xarakter daşıyır, bazarın real tələbinə cavab vermir. Özəl kurslar bahadır və keyfiyyəti bilinmir. 35-45 yaşlı mühasib, bank işçisi, məmur işini itirəndə hara getsin, nəyi öyrənsin bilmir. Nəticədə ya taksiyə, ya alverə gedir, ya da gizli işsizə çevrilir".

**İqtisadçı rəqəmsal bacarıqların da ümumi əhali səviyyəsində aşağı olduğunu bildirib:** "Statistika Komitəsinin məlumatına görə əhalinin yalnız 25-30 faizi kompüterdə sərbəst işləyə bilir, excel, data ilə işləmək bacarığı 10 faizi keçmir. Kənd yerlərində, 40 yaşdan yuxarı əhali arasında vəziyyət daha pisdir. Süni zəka gələndə heç olmasa onunla işləməyi bacarmaq lazımdır. Prompt yazmaq, nəticəni yoxlamaq, süni zəkanı alət kimi istifadə etmək yeni savadlılıq olacaq. Bizdə isə hələ kompüter savadlılığı problemi həll olunmayıb.

Beşincisi, rəsmi işsizlik 5 faiz göstərilsə də, real vəziyyət fərqlidir. Gizli işsizlik, natamam məşğulluq, mövsümi işlər, qeyri-rəsmi məşğulluq çox yüksəkdir. Gənclər arasında işsizlik 15 faizin üstündədir. Ali təhsilli gənclərin 40 faizdən çoxu ixtisası üzrə işləmir. Bu, bazarın indidən xəstə olduğunu göstərir. Süni zəka gələndə bu xəstə bazar daha da yüklənəcək".

**Ekspertə görə, bunun yaxşı tərəfi də var:** "Azərbaycan kiçik ölkədir, qərarları tez verməic olur. İT sektoru son 3-4 ildə canlanır. Startaplar, proqramlaşdırma məktəbləri, dövlətin "Technest" təqaüd proqramı, ASAN xidmətin rəqəmsallaşması müsbət siqnallardır. Neft pulu hələ var və onu insan kapitalına yönəltmək imkanı qalır. Əgər növbəti 5 ildə təhsil sistemi köklü dəyişsə, peşə təhsili nüfuz qazansa, dövlət-özəl tərəfdaşlığı ilə kütləvi yenidənöyrənmə proqramları başlasa, zərbəni yüngülləşdirmək olar. Amma indiki templə getsək, 10-15 ildən sonra vəziyyət ağır olacaq. Süni zəka çağrı mərkəzlərini, bank filiallarını, mühasibatlığı, sənəd dövriyyəsini, dizaynı, tərcüməni, hətta hüquq məsləhətini böyük ölçüdə əvəz edəcək. Hazırda bu sahələrdə yüz minlərlə adam çalışır. Onların yerinə yeni iş yeri açılmasa, sosial partlayış riski yaranır. Nə etməli? Universitetləri bağlamaq yox, ixtisasları dəyişmək lazımdır. Hüquq fakültəsində "hüquqi süni zəka", iqtisadiyyatda "data iqtisadiyyatı", tibdə "rəqəmsal səhiyyə" tədris olunmalıdır. Məktəbdən kodlaşdırma və tənqidi düşüncə keçirilməlidir. Dövlət işlədiyi sahələri özü avtomatlaşdırıb boşalan adamları özəl sektora yönəltmək üçün subsidiya verməlidir. Ən əsası isə əhaliyə açıq demək lazımdır ki, 5 ildən sonra bugünkü peşələrin yarısı olmayacaq. Kim öyrənməsə, kənarda qalacaq. Qısası, Azərbaycan əmək bazarı süni zəka dalğasına hazır deyil. Hazırlıq üçün 10 il vaxtımız var, amma hərəkətə indi başlamaq lazımdır. Yoxsa Dünya Bankının dediyi işsizlik böhranı bizdə Finlandiyadan da ağır formada baş verəcək, amma onların sosial müdafiə sistemi bizdə yoxdur".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# WUF13 zamanı Bakıda yollar tam bağlanacaq?




**WUF13 zamanı nəqliyyatın təşkili baxımından "yaşıl dəhliz" prinsipi tətbiq olunacaq.**

Bunu tədbir günlərində nəqliyyatın idarə olunması planının təqdimatına dair brifinqdə Daxili İşlər Nazirliyi Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin rəisi Namidan Piriyev deyib.

O bildirib ki, xüsusi ayrılmış marşrutlar üzrə fasiləsiz hərəkət təmin ediləcək, zəruri hallarda yol kəsişmələrində prioritet keçid veriləcək, iştirakçıların vaxtında və təhlükəsiz şəkildə təyinat nöqtəsinə çatdırılması təmin olunacaq: "Bu məqsədlə müvafiq tədbirlər görüləcək, həm yol hərəkətinin təşkili, həm də təhlükəsizlik tədbirləri paralel şəkildə həyata keçiriləcək.

Eyni zamanda tədbirin açılış günü, 18 may tarixində hərəkətin intensivliyi nəzərə alınaraq bəzi istiqamətlərdə müvəqqəti dəyişikliklər edilə bilər.

Bu dəyişikliklər əsasən yüksək səviyyəli qonaqların və rəsmi nümayəndə heyətlərinin hərəkətini təmin etmək məqsədi daşıyır. Lakin ümumilikdə yolların tam bağlanması nəzərdə tutulmur, yalnız zəruri hallarda qismən istiqamət dəyişiklikləri tətbiq oluna bilər".

Namidan Piriyev qeyd edib ki, yeni tətbiq olunan "yaşıl zolaq" adlanan avtobus zolaqlarında digər nəqliyyat vasitələrinin hərəkətinə ciddi nəzarət olunacaq: "Bu qayda pozuntusu hesab olunur və buna görə müvafiq tədbirlər görüləcək".

YENİ MÜSAVAT
N 17 (8866) 6 may 2026

# “Mehdiyev işi”ndə yeni gəlişmə

## "Hürriyyət" qəzetinin baş redaktoru Vüqar Məmmədovun vəkili bildirib ki, müvəkkilinin işi PA-nın sabiq rəhbərinin cinayət işindən ayrılıb



**Gələn ay Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev barəsində seçilmiş ev dustaqlığının 8 ayı tamamlanır. Cinayət Məcəlləsinin 278.1, 274 və 193-1.3.2-ci maddələri ilə təqsirləndirilən Ramiz Mehdiyev barəsində seçilmiş qətimkan tədbirinin müddəti artıq bir neçə dəfə uzadılıb. Oktyabrın 31-də Baş Prokurorluğun təqdimatı, Səbayel Rayon Məhkəməsinin qərarı ilə “Hürriyyət” qəzetinin, Hurriyyet.az saytının və “Hurriyyet TV”nin baş redaktoru Vüqar Məmmədov (Tofiqoğlu) barəsində həbs-qətimkan tədbiri seçilib. Mayın 4-də Bakı Ağır Cinayətlər Məhkəməsində Vüqar Məmmədovun cinayət işi üzrə hazırlıq iclası keçirilib. Haqqin.az-ın məlumatına görə, hakim Elmin Rüstəmovun sədrliyi ilə keçirilən məhkəmə prosesində təqsirləndirilən şəxsin şəxsi məlumatları dəqiqləşdirilib. Təqsirləndirilən şəxsin vəkili Aqil Layic bildirib ki, müvəkkilinin işi Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin cinayət işindən ayrılıb. Müdafiəçinin təqsirləndirilən şəxsin hazırda saxlanıldığı DTX-nın istintaq təcridxanasından Bakı istintaq təcridxanasına köçürülməsi ilə bağlı vəsatəti təmin edib. Məhkəmə prosesi mayın 18-nə təyin edilib.**

Qeyd edək ki, ötən il dekabrın 1-də DTX-nin təqdimatı, Səbayel Rayon Məhkəməsinin qərarı ilə AXCP sədri Əli Kərimli və onun müşaviri Məmməd İbrahim barəsində də həbs-qətimkan tədbiri seçilib. Hər iki şəxs Cinayət Məcəlləsinin 278.1-ci maddəsi ilə təqsirləndirilir. Mediada Milli Elmlər Akademiyası katibliyinin keçmiş rəisi, Prezident Administrasiyasının sabiq əməkdaşı Eldar Əmirovun da “Mehdiyev işi”nə görə tutulduğu qeyd edilib. Eldar Əmirovun hazırda hansı təcridxanada saxlandığı haqda da bilgi yoxdur. Beləliklə, mediaya çıxan xəbərlərə əsaslansaq, ümumilikdə 4 nəfərin (Vüqar Məmmədov, Əli Kərimli, Məmməd İbrahim, Eldar Əmirov) “Mehdiyev işi”nə görə həbs olunduğunu söyləmək mümkün idi, amma artıq açıq mənbələrdən təsdiqlənib ki, Vüqar Məmmədovun cinayət işi məhkəmədə Ramiz Mehdiyevlə bağlı araşdırılmayacaq.

**Tanınmış vəkil Ceyhun Yusifov** “Yeni Müsavat”a deyib ki, ağır cinayətlər üzrə istintaq mərhələli şəkildə uzadıla bilər, lakin hər uzatma konkret səbəblərlə əsaslandırılmalıdır: “Hazırda konkret şəxslərə Cinayət Məcəlləsinin 278.1, 274 və 193-1.3.2-ci maddələri ilə ittihamlar irəli sürülüb. Bu maddələrin mahiyyəti sıradan cinayət işindən çox uzaqdır. Cinayət Məcəlləsinin 274-cü maddəsi - dövlətə xəyanət kimi ən ağır hüquqi kvalifikasiyaya aiddir. Həmin məcəllənin 278.1-ci maddəsi - hakimiyyətin zorla ələ keçirilməsinə yönələn əməllər adlanır. 193-1.3.2 - maliyyə xarakterli ağırlaşdırıcı leqallaşdırma epizodlarını əhatə edir. Bu 3 maddə bir araya gəldikdə, hüquq praktikasında bu işlər çoxepizodlu, xüsusi mürəkkəb istintaq kateqoriyasına daxil edilir. Və məhz burada istintaq müddətləri adi qayda ilə deyil, istisna mexanizmləri ilə işləməyə başlayır”.

**Ceyhun Yusifov deyib ki, Cinayət-Prosessual Məcəllənin 218-ci maddəsi açıq bir model müəyyən edir:** “İbtidai istintaq standart müddətlə başlayır, lakin işin xüsusilə ağır olması halında hər dəfə 6 aya qədər uzadılma imkanı yaranır. Burada əsas hüquqi məntiq budur ki, işin mürəkkəbliyi müddəti müəyyən edir. Praktikada 274 və 278 kimi maddələrdə bu balans demək olar ki, həmişə belə olur. Hər hansı bir şəxs barəsində həbs-qətimkan tədbiri seçilərkən Cinayət-Prosessual Məcəllənin 159-cu maddəsi işə düşür. Bu maddəyə görə ilkin mərhələdə 4 aylıq həbs-qətimkan tədbiri seçilir. Sonrakı mərhələdə 4-6 ay uzatma imkanı var. Bu mexanizmin hüquqi mahiyyəti sadədir. İstintaq bitmədiyi halda, azadlıq da tam bərpa olunmur. Lakin burada mühüm bir prinsip var. Hər dəfə istintaq müddəti uzadıldıqda ayrıca əsaslandırma aparılmalıdır. Yəni işin mürəkkəb olması özü-özlüyündə istintaq müddətinin uzadılması üçün avtomatik səbəb deyil”.

Ceyhun Yusifov deyib ki, **istintaqın maksimum həddi də qanunla müəyyən olunub:** “Qanunvericiliyin sistemli təhlili göstərir ki, xüsusilə ağır cinayətlər üzrə həbsdə saxlanılma praktik olaraq 18 aya qədər uzana bilən ümumi çərçivəyə düşür. Amma burada da vacib bir hüquqi incəlik var. Bu müddət avtomatik normativ limit deyil, məhkəmə və prokuror nəzarəti altında formalaşan maksimal praktik həddir. Yəni hüquq "rəqəm" qoyur, amma həmin rəqəmin necə istifadə olunacağı artıq prosessual davranışdan asılıdır. 278, 274 və 193-1.3.2 maddələri ilə aparılan istintaqlarda hüquqi balansın ən həssas nöqtəsi dövlət təhlükəsizliyi elementi, iqtisadi cinayət tərkibi və təşkilatlanmış xarakterdir. Bu maddələr üzrə istintaq bir işdə birləşdiyi üçün proses avtomatik olaraq uzunmüddətli istintaq modelinə keçir".

❑ **E.MƏMMƏDƏLİYEV, Musavat.com**

# YAP-ın ertələnən qurultayı - kulislərdə danışılanlar...

## Hakim partiyanın parlament təmsilçisi: “Qurultayın keçirilməsinin vaxtı...”

**Hakim Yeni Azərbaycan Partiyasının (YAP) VIII qurultayının mart və daha sonra aprel ayında keçirilməsi gözlənilsə də, tədbir hələ baş tutmayıb. Rəsmi açıqlama verilməsə də, siyasi kulislərdə qurultayın müxtəlif səbəblərdən təxirə salındığı barədə müzakirələr davam edir. Martda Ramazan və Novruz bayramları, eləcə də sərhədimizdəki İranda müharibə səbəbindən hakim partiyanın sayca VIII qurultayını ertələdiyi iddia olunurdu. Amma indi may ayıdır və ölkəmiz BMT-nin Ümumdünya Şəhərsalma Forumunu (WUF13) keçirməyə hazırlaşır. Belə bir ərəfədə daxili siyasi gündəmin, o cümlədən hakim partiyanın qurultayının arxa plana keçməsi idarəetmə baxımından mümkün ssenari kimi qiymətləndirilir.**




Partiyanın qurultayı YAP nizamnaməsinin 7-ci maddəsi ilə tənzimlənir. Qurultay partiyanın İdarə Heyəti tərəfindən beş ildə bir dəfədən az olmayaraq çağırılır. Partiyanın növbədənkənar qurultayı İdarə Heyətinin qərarı, səlahiyyətlərində olan məsələlər çərçivəsində Təftiş Komissiyasının qərarı və ya partiya üzvlərinin ən azı üçdə iki hissəsinin müraciəti ilə çağırılır.

Qurultayın müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir: partiyanın nizamnaməsinin qəbul edilməsi, ona dəyişiklik və əlavələrin edilməsi, partiya sədrinin seçilməsi və vaxtından əvvəl vəzifəsindən azad edilməsi, İdarə Heyətinin, Təftiş Komissiyasının və Veteranlar Şurasının say tərkibinin müəyyənləşdirilməsi.

Bundan başqa, partiya sədrinin təqdimatı əsasında İdarə Heyəti və Təftiş Komissiyası üzvlərinin, həmçinin Veteranlar Şurasının üzvlərinin, sədrinin və sədr müavininin beş il müddətinə seçilməsi və vaxtından əvvəl vəzifələrindən azad edilməsi, partiyanın yenidən təşkil olunması və ləğv edilməsi haqqında qərar qəbul etmək hüququ var. Qurultay nümayəndələrinin ən azı üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətli sayılır.

**YAP Nəzarət-təftiş komissiyasının üzvü, Milli Məclisin deputatı Elman Nəsirov məsələ ilə bağlı qısa olaraq, “Yeni Müsavat”a bunları dedi:** "Yeni Azərbaycan Partiyasının qurultayının keçirilməsinin vaxtı ilə bağlı heç bir dəqiq məlumata malik deyilik. Bununla bağlı hər hansı bir toplantı və ya iclas olmayıb. Onun üçün də təbii ki, iştirak etməmişik. Yekun olaraq, bildirim ki, qurultay barədə dəqiq məlumatımız yoxdur”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**




# Sadıqlı - Müsavat davası yenidən qızışdı

**Müsavat Partiyasının keçmiş üzvü Yadigar Sadıqlı növbəti dəfə partiyaya qarşı müxtəlif ittihamlar səsləndirib. O, özünün Facebook səhifəsində Müsavat Partiyası rəhbərliyini demokratik dəyərləri pozmaqda günahlandırıb.**

Müsavat Partiyası Divanının üzvü, başqan müavini Razim Əmiraslanlı Bakupost.az-a bildirib ki, Yadigar Sadıqlı qərəzli mövqe sərgiləyir: “Mən təəccüblənmədim. Yadigar Sadıqlı uzun müddətdir Müsavat Partiyasına qarşı qərəzli mövqe tutur və guya gözdən salma xətti götürüb. Müsavat Partiyası nizamnamənin və kollegial idarəetmənin hökm sürdüyü siyasi təşkilatdır. Burada qərarlar bir nəfərin iradəsi ilə deyil, Qurultayın, Məclisin, Divanın iradəsi ilə qəbul olunur”.

Onun sözlərinə görə, İsa Qəmbərin başqanlığa qayıdışı da məhz bu mexanizmlər çərçivəsində baş verib: “O, nizamnaməyə uyğun şəkildə namizədliyini irəli sürüb və müsavatçıların iradəsi ilə seçilib. Partiya üzvləri müəyyən bir mərhələdə təcrübəyə, siyasi çəkisi olan liderə ehtiyac duyursa və bunu səsvermə ilə təsdiqləyirsə, bu artıq demokratik iradənin ifadəsidir”.

Müsavat funksioneri qeyd edir ki, Sadıqlı qərəzindən əl çəkmir: “Yadigar Sadıqlının öz siyasi keçmişini də unutmaq olmaz. 2019-cu ildə başqanlığa namizəd olub və cəmi 20-yə yaxın səs toplayıb. Bu, onun partiya daxilində real dəstək səviyyəsini açıq göstərib. Bundan sonra davamlı şəkildə partiyanı hədəf alması isə daha çox şəxsi qərəzdən irəli gəlir”.

YENİ MÜSAVAT
N 17 (8866) 6 may 2026




# “İran Federativ Respublikası” planı yenidən masada

## ABŞ-nin nüfuzlu “Council on Foreign Relations” platforması: “Qərb regional hüquqlar tələb edən Azərbaycan türkləri, ərəblər, bəluclar, kürdlərlə daha fəal işləməlidir”

**ABŞ Tehranın son təkliflərini qəbul etmədi. Mediaya sızan iddialara görə, ABŞ hücumlara son qoyacağı və İran limanlarının blokadasını ləğv edəcəyinə zəmanət verəcəyi təqdirdə Hörmüz boğazının açılması şərtlərini müzakirə etməyin mümkünlüyünü göstərib. Bildirilir ki, İran həmçinin ABŞ sanksiyalarının yumşaldılması müqabilində nüvə proqramı ilə bağlı məsələləri müzakirə etməyi təklif edib. Vaşinqtonun isə bu təklifləri qəbul etmədiyi deyilir. Hadisələrin gedişi göstərir ki, İran mövzusu ətrafında gərginlik yenidən artacaq.**

Bu arada ABŞ-nin nüfuzlu “Council on Foreign Relations” (CFR) platforması İranın gələcəyi və Qərbin bu məsələdə yanaşması ilə bağlı maraqlı məqalə ilə çıxış edib. Məqalənin müəllifi tanınmış analitiklərdən olan Edd Hüseyndir.

Onun yazdığına görə, təkcə hərbi təzyiq İranın dini hakimiyyət ideologiyasını neytrallaşdırmaq üçün kifayət etmir və Qərb daha uzunmüddətli yanaşma formalaşdırmalıdır. Ekspert bildirir ki, ABŞ və müttəfiqləri də buna cavab olaraq İranın daxili etnik və siyasi bölünmələrini gücləndirməklə Tehranı zəiflətməlidirlər. “Qərb İran daxilində daha çox muxtariyyət və ya regional hüquqlar tələb edən qruplarla - Azərbaycan türkləri, ərəblər, bəluclar, kürdlər, lorlar, taciklər və türkmənlərlə - daha fəal işləməlidir”.

Onun fikrincə, bu prosesdə əsas məqsəd İranı “Ayətullahdan sonrakı dövrə” hazırlamaq və federativ idarəçilik modelinə doğru yönləndirmək olmalıdır. “İranın gələcəyi İslam Respublikasında deyil, "İran Federasiyası" modelindədir. Gələcəkdə bəzi bölgələr Tehrandan müstəqil olmaq istəsə, buna imkan verilməsi də müzakirə oluna bilər".

Qeyd edək ki, İranın parçalanması və federallaşması Qərbin çoxdankı planları sırasındadır. İki müharibədə İranın dini rəhbərliyini sıradan çıxaran ABŞ və İsrail rejim dəyişikliyinə nail ola bilmədi. O səbəbdən belə görünür ki, yenidən bu variant anti-İran qüvvələrin gündəminə qayıdıb.

“İran sonrası” ssenarilər, xüsusən də federalizm mövzusu birbaşa Türk dünyasının geosiyasi balansını ilgiləndirir. Çünki İran təkcə farslardan ibarət deyil. Bu ölkədə milyonlarla azərbaycanlı, türkmən, qaşqay, Xorasan türkü yaşayır və onların statusu dəyişmədən İranın sabitləşməsi mümkün deyil. İran daxilində ən böyük və siyasi baxımdan ən həssas türk toplumu Güney Azərbaycan türkləridir. Onlar nə monarxiyanı, nə də teokratiyanı qəbul edirlər. İranın federallaşması nə qədər realdır, belə olarsa, Azərbaycan və ümumiyyətlə, bu arealdakı türk toplumu nə qazanar, nə itirər? Niyə yenidən İranın parçalanması masaya gətirilir?

**Politoloq Elxan Şahinoğlu** “Yeni Müsavat”a bildirdi ki, İrana qarşı müharibə başlayanda da bu ölkənin parçalanması ehtimalı haqqında müxtəlif fikirlər səslənirdi. Buna baxmayaraq, müharibənin gedişində bu mövzu arxa plana keçdi: “Çünki müharibə İran cəmiyyətində sanki birlik yaratmış görüntüsü vermişdi. Halbuki İranda yaşayan xalqların mövcud vəziyyətdən narazılığı ortadan qaldırılmayıb. ABŞ müharibəyə başlayanda İrandakı rejimin çökməsini hədəfləyirdi. Bu alınmadı. ABŞ Prezidenti Donald Tramp hazırda müharibə əvəzinə İranı iqtisadi zəmində çökdürməyə çalışır. ABŞ-nin Hörmüz boğazını mühasirədə saxlaması məhz bununla bağlıdır. Yəqin Vaşinqtonun planı belədir ki, İranda iqtisadi vəziyyətin ağırlaşması ölkədə narazılığı artıracaq və insanlar yenidən küçələrə çıxacaqlar. Ona görə də ABŞ-də İranda yaşayan müxtəlif xalqların öz hüquqları uğrunda mübarizəyə başlayacağı yenidən proqnozlaşdırılır”.

**Politoloq qeyd etdi ki, bu proqnozların özünü doğruldub-doğrultmayacağını zaman göstərəcək:** “Bu gün üçün İranın federallaşacağını söyləmək çətindir. Məsələ burasındadır ki, İranda hakimiyyəti ələ keçirən SEPAH yenə qəddarlıqla etirazları yatırda bilər. Ancaq bu da çox uzun çəkə bilməz. İnsanları daima qorxu altında saxlamaq mümkün deyil. Bunun bir sonu olmalıdır. Ya da ki, İran rejimi özü islahatlara başlamalıdır. Ancaq SEPAH generallarının islahata başlayacağını proqnozlaşdırmaq mümkün deyil”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Anakliya limanı “Tramp marşrutu”na qarşı

## Gürcüstan yolu yükdaşımalarda inhisar yaradıb və Zəngəzur dəhlizinin açılması buna son qoya bilər - ekspertdən gözlənti

**Gürcüstanın Qara dəniz sahilində tikilməsi planlaşdırılan Anakliya dərin su limanı regionda formalaşan yeni nəqliyyat marşrutları fonunda ciddi rəqabətlə qarşı-qarşıya qalıb. Xüsusilə Ermənistan üzərindən keçməsi nəzərdə tutulan və qeyri-rəsmi olaraq “Tramp marşrutu” adlandırılan alternativ xətt Tiflisin tranzit mövqelərinə birbaşa təhdid kimi qiymətləndirilir.**




Bəllidir ki, “Tramp marşrutu” Orta dəhlizin daha qısa alternativi kimi nəzərdən keçirilir. Bu xəttin reallaşması halında yük axınlarının bir hissəsi Gürcüstan ərazisindən yan keçərək Ermənistan və Türkiyə üzərindən daşına bilər. Ekspertlər hesab edir ki, belə bir ssenari Anakliya limanının gələcək yüklənmə potensialına ciddi təsir göstərə bilər. Çünki limanın əsas funksiyası məhz Orta dəhliz üzrə daşınan yüklərin Qara dəniz üzərindən Avropaya çıxışını təmin etməkdir.

Alternativ marşrutun əsas üstünlüklərindən biri onun Türkiyə ilə birbaşa əlaqələndirilməsidir. Hazırda tikilməkdə olan Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsi “Tramp marşrutu”nun logistika imkanlarını daha da genişləndirə bilər. Bu isə regionda yeni nəqliyyat balansı yaradır və Gürcüstanın illərdir qoruduğu tranzit üstünlüyünü sual altına qoyur.

Buna baxmayaraq, Gürcüstan tərəfi Anakliya limanının əhəmiyyətinin azalmadığını bildirir. İllik ötürmə qabiliyyətinin 15 milyon ton olması planlaşdırılan liman Qara dənizdə iri yük gəmilərini qəbul edə biləcək azsaylı infrastrukturlardan biri olacaq. Rəsmi Tiflis hesab edir ki, limanın istismara verilməsi ölkənin tranzit potensialını artıracaq və alternativ marşrutların yaratdığı riskləri müəyyən qədər kompensasiya edəcək.

Anakliya layihəsi təkcə regional deyil, həm də qlobal güclərin maraq dairəsindədir. ABŞ limanın Çin nəzarətinə keçməsinə qarşı çıxır və bunu təhlükəsizlik baxımından riskli hesab edir. Çin isə layihəni Avropa ilə ticarət əlaqələrini genişləndirmək üçün strateji imkan kimi görür. Beləliklə, Anakliya limanı ətrafında gedən proseslər sadəcə iqtisadi deyil, həm də geosiyasi rəqabətin tərkib hissəsinə çevrilib. “Tramp marşrutu”nun gündəmə gəlməsi Cənubi Qafqazda nəqliyyat xəritəsini dəyişdirə bilər. Bu şəraitdə Anakliya limanı Gürcüstanın əsas strateji cavabı kimi çıxış edir. Lakin rəqabətin necə nəticələnəcəyi həm region ölkələrinin qərarlarından, həm də ABŞ və Çin kimi qlobal oyunçuların mövqeyindən asılı olacaq.

Xatırladaq ki, 2017-ci ilin noyabrında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə Gürcüstanın Anaklia Dərin Dəniz Limanı arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Memorandumda iki ölkənin dəniz limanları arasında informasiya mübadiləsi, ticarət dövriyyəsinin artırılması və əməkdaşlığın genişləndirilməsi məsələləri nəzərdə tutulub. Mütəxəssislərə görə, ümumi dəyəri 2,5 milyard dollar olan Anaklia dərin dəniz limanı qədim İpək yolu marşrutunda Azərbaycan və Qazaxıstanın mövqeyini möhkəmlədəcək.

Gürcüstan uzun illərdir Azərbaycanın əsas tranzit tərəfdaşıdır. Bakı-Tiflis-Ceyhan (BTC) neft kəməri, Bakı-Tiflis-Ərzurum (BTE) qaz kəməri Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu və TANAP bu əməkdaşlığın təməlini təşkil edir. Bu layihələr təkcə texniki deyil, siyasi mənada da Azərbaycanla Gürcüstanı sıx birləşdirir. Yəni burada bir mövqe dəyişimi, ya da əvəz olunma situasiyası yox, sadəcə, alternativ bağlantıların qurulması var. Keçmiş prezident Mixail Saakaşvili isə iddia edir ki, Ermənistan üzərindən keçəcək yeni dəhliz Gürcüstanın strateji rolunu zəiflədəcək. Son dövrlər bu yöndə digər gürcü siyasətçilərin də narahatlığı diqqəti cəlb edirdi.

**Respublikaçı Alternativ Partiyasının sədri Natiq Cəfərli** “Yeni Müsavat”a bildirib ki, Gürcüstan yolu yükdaşımalarda inhisar yaradıb və Zəngəzur dəhlizinin açılması buna son qoya bilər. Onun sözlərinə görə, bununla belə, Anakliya limanı ilə Zəngəzur dəhlizini bir-birinə kömək edəcək layihələr adlandırmaq lazımdır: “O yüklər Azərbaycana gəlməlidir və sonra Gürcüstana keçib Qara dənizdən Avropaya daşınmalıdır. Bu gün də Şərq-Qərb dəhlizinin bir hissəsi kimi yüklər daşınaraq Qara dəniz limanlarına çıxır. Sadəcə, Zəngəzur dəhlizi açılanda yüklər birbaşa Avropaya daşına bilər. Yeni malların limanlara yüklənməsi əlavə işdir”.

**N.Cəfərli qeyd edib ki, Anakliya limanı ilə bağlı Gürcüstanın Çinlə müqaviləsi var:** “Bu faktor Tiflisin ABŞ və Avropa ilə münasibətlərini korlayıb. Yəni Qərbin Gürcüstan hakimiyyətinin ünvanına demokratiya, insan haqları ilə bağlı tənqidləri görünən tərəfidir. Əslində Gürcüstanın bu limanı Çinə verməsi problem kimi dayanır və ABŞ, eləcə də Avropa İttifaqı tərəfindən xoş qarşılanmır. Çünki bu limanı Çinin nəzarətinə vermək istəmirlər. Ona görə ABŞ Gürcüstanla münasibətləri yumşaltmaq istəyir, Avropa isə hələlik addım atmayıb. Çox güman ki, bu limanla bağlı məsələni həll etmək istəyir var. Gürcülər də amerikalılardan yaxşı təklif gözləyirlər ki, həmin limanın istifadəsini Çinə yox, ABŞ-yə versinlər. Avropa Birliyi isə təklif edir ki, limanı birgə işlətsinlər. Belə desək, bu liman Gürcüstanın əlində manevr imkanı yaradıb. Zəngəzur dəhlizinin açılması isə yükdaşımalarda bu inhisarçılığa son qoya bilər. Eyni zamanda Azərbaycanla Qazaxıstan birgə şirkət yaradıblar. O layihə ilə yüklərin bərabər şəkildə bölünməsi də reallaşa bilər. Ancaq hələ də bəzi gürcü rəsmiləri Zəngəzur dəhlizi ilə bağlı tərəddüd edirlər”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 17 (8866) 6 may 2026



# Ankara-İrəvan xəttində yeni mərhələ

## Ani körpüsünün bərpası memorandumu nə vəd edir

**Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz Ermənistanın paytaxtı İrəvanda keçirilən Avropa Siyasi Birliyinin sammiti çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyanla görüş keçirib. Bu barədə Cevdet Yılmaz görüşdən sonra sosial şəbəkə hesabında paylaşım edib. O bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı təmsil edərək iştirak etdiyi sammit çərçivəsində Paşinyanla geniş və məhsuldar müzakirələr aparıb. "Paşinyanla görüşümüz zamanı ikitərəfli münasibətləri ətraflı şəkildə qiymətləndirdik. Eyni zamanda nəqliyyat, gömrük, enerji, rəqəmsal infrastruktur və əlaqəliliyin gücləndirilməsi istiqamətində atılacaq addımları müzakirə etmək imkanımız oldu", - deyə Yılmaz qeyd edib.**

Türkiyə vitse-prezidenti normallaşma prosesində qarşılıqlı konstruktiv addımların konkret nəticələr verməsindən məmnun olduqlarını vurğulayıb.

Onun sözlərinə görə, tərəflər iki ölkə sərhədindəki Ani körpüsünün birgə bərpasına dair memorandum imzalayıblar: "İmzalanan memorandum çərçivəsində Ani körpüsünün ortaq şəkildə bərpası kimi simvolik və konkret əməkdaşlıq layihələrinin bölgədə davamlı sülh və etimad mühitinə töhfə verəcəyinə inanırıq. Türkiyə Cənubi Qafqazda sülh, dialoq və sabitlik əsasında normallaşma prosesinin irəlilədilməsi, iqtisadi əməkdaşlığın artırılması və xalqlar arasında təmasların gücləndirilməsi istiqamətində siyasətini davam etdirəcək".

Türkiyənin vitse-prezidenti Cevdet Yılmazla Ermənistanın baş naziri Nikol Paşinyan arasında Avropa Siyasi Birliyinin sammiti çərçivəsində İrəvanda keçirilən görüş Ankara-İrəvan xəttində normallaşma prosesinin yeni mərhələyə keçdiyini göstərir.

Yılmazın açıqlamasından görünür ki, tərəflər artıq yalnız siyasi dialoqla kifayətlənmir, konkret iqtisadi və texniki əməkdaşlıq istiqamətlərinə fokuslanır. Nəqliyyat, gömrük, enerji və rəqəmsal infrastruktur kimi sahələrin müzakirəsi regionda əlaqəliliyin artırılmasına yönəlmiş strateji gündəmin formalaşdığını göstərir. Bu isə faktiki olaraq sərhədlərin açılması və regional iqtisadi inteqrasiyanın dərinləşdirilməsi ehtimalını gücləndirir.

Xüsusilə Ani körpüsünün birgə bərpası ilə bağlı memorandum simvolik olsa da, ciddi siyasi mesaj daşıyır. Bu addım iki ölkə arasında etimad quruculuğu tədbiri kimi çıxış edir və uzun illər bağlı qalan münasibətlərdə "yumşaq başlanğıc" rolunu oynaya bilər. Tarixi və mədəni irsin birgə qorunması təşəbbüsü tərəflərin qarşılıqlı inam yaratmaq istədiyini göstərir.

Bununla belə, prosesin tam normallaşmaya çevrilməsi birbaşa olaraq daha geniş regional kontekstdən asılıdır. Xüsusilə Azərbaycan-Ermənistan münasibətlərində yekun sülh sazişinin imzalanması bu prosesin əsas şərtlərindən biri olaraq qalır. Ankara indiyədək bu məsələdə Bakının mövqeyi ilə koordinasiyalı siyasət aparıb və bundan sonra da eyni xəttin davam edəcəyi gözlənilir.

Ümumilikdə, Yılmaz-Paşinyan görüşü göstərir ki, tərəflər artıq deklorativ bəyanatlardan praktik əməkdaşlığa keçmək niyyətindədir. Əgər bu istiqamətdə real addımlar davamlı olarsa, Cənubi Qafqazda nəqliyyat dəhlizlərinin açılması, ticarət dövriyyəsinin artması və siyasi gərginliyin azalması kimi nəticələr mümkün görünür.

---

**Azərbaycanın baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Ermənistana ötən həftə etdiyi səfər sərhədlərin müəyyənləşməsi ilə bağlı prosesin ləng getdiyini təsdiqlədi. Yada salaq ki, Azərbaycanın Ermənistanla sərhədinin uzunluğu 1066 kilometrdir. Bunun da cəmi 13 kilometri delimitasiya olunub. Demarkasiya çətin və vaxt aparan prosesdir. Çünki müxtəlif xəritələr var, bəzilərində bir sıra pozuntular var və s. Elə dövrlər olub ki, ermənilər qanunsuz olaraq sərhədi irəli çəkərək Azərbaycan ərazilərinə daxil olublar.**



# Bakı və İrəvanın "gizli razılaşması"- 1066 km-dən cəmi 13-ü...

## Sərhəd məsələsinin yaxın zamanlarda həll olunması real görünmür; Paşinyan hökumətinin ən çox hansı məsələ "yuxusunu ərşə çəkib"?

Ekspertlərə görə, Ermənistandakı daxili siyasi vəziyyətdə Nikol Paşinyan hökuməti də bu prosesin yubanmasında maraqlıdır. Bir məqamı da nəzərə almalıyıq ki, Ermənistanın Gürcüstanla sərhədləri tam delimitasiya olunmayıb. O üzdən, delimitasiyanın uzun vaxt aparacağına təbii yanaşmaq da olar. Ermənilərin yalançı hay-küyünə baxmayaraq, əvvəla, sərhədlərin delimitasiyası prosesi beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq aparılır və bu, Azərbaycanın uzun illərdir müdafiə etdiyi mövqedir. Amma razılaşaq ki, 2024-cü ildən bəri başlayan proses çox zəif gedir.

Ermənistandakı bəzi dairələr iddia edir ki, 2024-cü ildən bu günə qədər delimitasiya və demarkasiya çərçivəsində baş verən dəyişikliklər gizli saxlanılır. İddiaya görə, nəticədə ümumi hesabla təxminən 5,9 kvadrat kilometr ərazi Azərbaycanın, 0,5 kvadrat kilometrdən az ərazi isə Ermənistanın nəzarətinə keçib.

Gizli saxlanıldığı iddia olunan ərazi dəyişiklikləri iddiaları adətən siyasi manipulyasiya elementi olur. Delimitasiya prosesində kiçik sahələrin tərəflər arasında keçməsi normaldır, çünki sərhəd hüquqi əsasla "sıfırdan" müəyyənləşdirilir. Amma bu prosesin şəffaf olmaması ictimai etimadı azaldır və siyasi spekulyasiyalara zəmin yaradır.

Bəs bundan sonra nə olacaq? Delimitasiya olunan sərhədlərin uzunluğu artacaqmı, yoxsa yalnız sülh sazişi imzalanacağı halda bu proses sürətlənəcək?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə şərhçi Fikrət Yusifov** "Yeni Müsavat"a bildirdi ki, sərhədlərin dəqiqləşdirilməsi iki ölkə arasındakı münasibətlərdə ən mühüm məsələdir: "Bu gün bu delimitasiya zamanı ortaya çoxsaylı suallar çıxır ki, bu da prosesi bir xeyli zəiflədir. Bu ən azından ona görə baş verir ki, ermənilər zaman-zaman müxtəlif yollarla bizim bəlli sərhədlərimizə daxil olub, ərazilərimizi özününküləşdiriblər. Onlar bunu həm sovetlər dönəmində, həm də müstəqillik illərində ediblər. Məsələn, Ulu öndər Heydər Əliyev çıxışlarının birində deyib ki, Zəngəzur Ermənistana verilərkən Mehridən keçən dəhlizin eni 10 kilometrdən çox olmayıb. Ancaq bu gün həmin dəhlizin eni 45 kilometr uzunluqdadır. Bu nə deməkdir? Deməli, ermənilər tək bu sərhədlərdə deyil, digər sərhədlərimizdə də eyni oyunu oynayıblar. Ona görə sərhədlərin müəyyənləşdirilməsi istiqamətində bu gün aparılan işlər yetərincə mürəkkəbdir. Bu prosesin siyasi tərəfləri Ermənistanın indiki hakimiyyətini ciddi narahat edir. Çünki delimitasiya zamanı vaxtilə yağmalanmış və ermənilər tərəfindən Ermənistan torpaqları kimi tanınan ərazilər geri qaytarıldıqca, revanşistlər bundan Paşinyan hakimiyyətinə qarşı bir silah kimi istifadə edəcəklər. O səbəbdən, sərhədlərin dəqiqləşdirilməsi istiqamətində aparılan işlər zamanı aşkara çıxarılan faktlar həlləlik ictimailəşdirilmir".

**Ekspert hesab edir ki, sərhədlərin dəqiqləşdirilməsi istiqamətində işlər Ermənistanda parlament seçkilərindən sonra sürətlə aparılacaq:** "Çünki seçkilərdən sonra Azərbaycanla Ermənistan arasında paraflanmış sülh müqaviləsinin təsdiq olunması kimi mühüm bir məsələ öz həllini tapmalıdır".

**Ədalət Partiyasının sədri Mütəllim Rəhimli hesab edir ki, Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyası məsələsi regionda sülhün yaranmasının həlledici nüanslarından biri olaraq qalır:** "1066 kilometrlik sərhədin cəmi 13 kilometrinin hüquqi baxımdan müəyyənləşdirilməsi faktı göstərir ki, proses hələ ilkin mərhələdədir. Bununla bağlı yaxın perspektivdə sürətli irəliləyiş gözləmək real görünmür. Bu ləngimə yalnız texniki çətinliklərlə bağlı deyil, həm də siyasi məsələlərlə əlaqədardır. Birincisi, delimitasiya məsələsi sırf xəritə üzərində aparılan texniki prosedur deyil. Prosesdə istifadə edilən xəritələr isə ziddiyyətlidir. Buna görə də bəzi ərazilərdə faktiki sərhəd xətti ilə hüquqi sərhəd arasında fərqlər var. Bu isə prosesi son dərəcə mürəkkəbləşdirir. Ona görə də hər bir kilometr üzrə ayrıca razılaşma tələb olunur. Nəticədə tərəflər ehtiyatlı davranmağa və problemin həllinin yubanmasına səbəb olurlar. Bu mənada delimitasiyanın yavaş getməsi müəyyən mənada anlaşılandır. Lakin məsələnin siyasi tərəfi daha az əhəmiyyət daşımır. Ermənistanda daxili siyasi sabitliyin kövrək olması və hökumətin ictimai təzyiqləri nəzərə alaraq riskli qərarlardan yayınmağa çalışması prosesi ciddi şəkildə ləngidir. Hazırda Paşinyanın hakimiyyəti üçün hər bir sərhəd razılaşması daxili auditoriyada güzəşt kimi təqdim olunur. Bu da əlavə siyasi risk yaratdığından rəsmi İrəvan delimitasiyanı mərhələli və mümkün qədər uzadılmış şəkildə aparmaq istəyi istisna deyil. Digər tərəfdən, Bakı üçün delimitasiya prosesi yalnız texniki məsələ deyil, həm də postmünaqişə dövründə formalaşan yeni reallıqların hüquqi təsbitidir. Azərbaycan beynəlxalq hüquqa əsaslanan sərhədlərin müəyyənləşdirilməsində maraqlıdır, lakin prosesin sürəti ilə bağlı tələskənlik nümayiş etdirmir. Bu isə tərəflər arasında qeyri-rəsmi razılaşma kimi görünür".

**F.Yusifov onu da dedi ki, gizli razılaşma iddiaları daha çox daxili siyasi manipulyasiya xarakteri daşıyır:** "Delimitasiya prosesində kiçik ərazi dəyişiklikləri mümkündür. Beynəlxalq praktikada bu normal hal sayılır. Lakin prosesin tam şəffaf aparıla bilməməsi Ermənistan ictimaiyyətində müxtəlif şübhələrə yol açır.

Gələcək perspektivə gəldikdə isə delimitasiya prosesinin taleyi böyük ölçüdə sülh sazişinin imzalanmasından asılı olacaq. Əgər tərəflər arasında hərtərəfli sülh razılaşması əldə olunarsa sərhədlərin müəyyənləşdirilməsi prosesi daha rəvan gedə bilər. Çünki belə bir sənəd qarşılıqlı etimadı artırar və texniki məsələlərin daha operativ həllinə şərait yaradar. Əks halda, delimitasiya indiki kimi yavaş, epizodik səviyyədə davam edəcək. Hazırkı vəziyyət göstərir ki, sərhəd məsələsinin yaxın müddətdə tam həllini tapması çətindir. Prosesin sürətlənməsi üçün həm texniki baza, həm də siyasi iradə tələb olunur. Əks halda, 13 kilometrlik göstəricinin artması simvolik xarakter daşıyacaq və ümumi mənzərəni köklü şəkildə dəyişməyəcək".

**❑ Cavanşir ABBASLI, Musavat.com**

YENİ MÜSAVAT
N 17 (8866) 6 may 2026




© Cecilia Fabiano/LaPresse/ZUMA/picture

# Meloninin kədərli hekayəsi

## İtaliyanın ilk qadın hökumət başçısı, Mussolinidən sonra ikinci ifrat sağçı siyasətçi haqda bilmədiklərimiz...

**"Üzüklərin hökmdarı" ingilis yazıçısı Con Ronald Ruel Tolkienin məşhur fantaziya əsəridir. Bu kitab Xeyirlə Şərin mübarizəsi haqqında gözəl nağıl, dostluq, ümid, sədaqət kimi əbədi mövzulardan bəhs edən əsərdir. "Üzüklərin hökmdarı" son yüz ildə ən çox oxunan 100 kitab arasında ilk yerlərdən birini tutur.**

**Tetçer, Merkel, üçüncü isə...**

Əsərdə söhbət hobbitlərin yaşadığı kiçik bir kənddən gedir. Sehrbaz Qandalf köhnə dostu Bilbo Begginsin 111-ci ad gününə gəlir və illər öncə tapdığı üzük haqqında danışır.

Bu üzük bir vaxtlar dünyanın zülmət hökmdarı Sauronun olub və sahibinə böyük güc verib. İndi Sauron dünya üzərində hakimiyyəti yenidən ələ almaq istəyir. Buna görə də həmin üzüyü məhv etmək lazımdır. Bu işin öhdəsindən Bilbonun qohumu, gənc hobbit Frodo gəlməlidir. Beləcə, doqquz nəfərdən ibarət dəstə - "Üzük qardaşlığı" Sauronun ölkəsi Mordordakı alov dağına doğru yola çıxır...

Sözügedən yarıfantaziya, yarıfəlsəfi trilogiyanı xatırlamağımız təsadüfi deyil. Bu əsər mayın 4-də Azərbaycana qısamüddətli səfər etmiş İtaliyanın xanım baş naziri Ciorcia Meloninin ən sevimli, heyran olduğu əsərdir. O romanda və həmişə olduğu kimi, dünyada xeyirlə şərin mübarizəsi gedir. Ancaq "Üzüklərin hökmdarı" olmağı heç kim bacarmayıb - Nə Bonapart, nə Hitler, nə müasir dövrün liderləri.

Meloni isə hökmdar olmasa da, qədim tarixə malik İtaliyada hökmü olan siyasi liderdir. Avropada indiyədək az sayda qətiyyətli xanım liderlərin adlarını qeyd etmək olar - Tetçer, Merkel... - üçüncü misalı göstərməkdə açığı, çətinlik çəkirəm. Amma emosional, bəzən gülərüz, bəzən zəhmli görünən Meloni indi "Qoca qitə"nin ən qətiyyətli xanım lideri təsiri bağışlayır.

Çünki Avropa siyasi səhnəsində başqa qadın siyasətçilər də var, lakin onların heç biri Meloni kimi güclü görünmürlər - Kaya Kallas, Ursula fon der Leyen...

Bu, bəlkə də Meloninin yaşadığı ağır uşaqlıq illərindən irəli gəlir. Çünki uşaqlığı məşəqqətli, valideynsiz keçənlər daha tez böyüyürlər, həyatla mübarizədə amansız, sərt və soyuqqanlı olurlar. Meloni da onlardan biridir. O, atasını uşaqlıq illərindən itirib. Daha doğrusu, atası onları tərk edərək gedib.

**Onu italiyalılar üçün xarizmatik edən səbəb**

Meloni 15 yanvar 1977-ci ildə Romada doğulub. Atasının onları tərk etməsi onun həyatında dərin iz buraxıb. Belə ki, atası Françesco Meloni ailəni Giorgia hələ 1 yaşında ikən tərk edib və Kanar adalarına köçüb. 1980-ci ildə 3 yaşlı Ciorcia və bacısı təsadüfən evlərini yandırıblar, hadisədən sonra onları anaları ilə birlikdə yaşamaq üçün Romanın yüksək səviyyəli bölgəsindən fəhlə sinfi Garbatella məhəlləsinə köçməyə məcbur ediblər. "Atam öləndə heç nə hiss etmədim. Bu məni qəzəbləndirir, çünki heç olmasa ona nifrət etmək istərdim", - deyə Meloni xatırlayır. O, pul qazanmaq üçün uşaq baxıcısı, barmen, ofisiant, market satıcısı kimi çalışıb.

Ciorcia gənclik illərindən siyasətlə maraqlanmağa başlayıb və 1990-cı illərdə İtaliyanın sağçı gənclər təşkilatlarında fəal rol oynayıb. 2006-cı ildə, 29 yaşında parlamentə seçilib və İtaliya tarixində ən gənc deputatlardan biri kimi tanınıb. Meloni 2012-ci ildə "İtaliya Qardaşları" partiyasını qurub. Bu partiya əvvəllər az tanınırdı, lakin Meloninin xarizmatik liderliyi və sərt antimiqrasiya, milli dəyərləri vurğulayan ritorikası ilə partiya qısa zamanda populyarlıq qazanıb. Lakin onun partiyasının kökləri faşist lider Benito Mussolininin ideologiyasına yaxın təşkilatlara dayanır ki, bu da xanım baş nazirin beynəlxalq aləmdə bəzən mübahisəli fiqur kimi qəbul edilməsinə səbəb olur.

**Jurnalistlə evliliyin axırı**

Meloni çox enerjili, natiqlik qabiliyyəti güclü və tez-tez emosional çıxışları ilə tanınır. Onun ən məşhur şüarlarından biri "Tanrı, Vətən, Ailə"dir. Doğrudan da gözəl şüardır, bu üç dəyərdən daha artıq nə var ki?!

Meloni bir qız övladının anasıdır və ailəsini daim ön planda tutduğunu vurğulayır. O, rəsmi nikahda deyil, lakin uzun illər jurnalist Andrea Giambruno ilə münasibətdə olub. Onların bir qız övladı - Ginevra (2016-cı il təvəllüdlü) var. Andrea Giambruno "Mediaset" telekanalında aparıcı və jurnalist kimi çalışıb. Vaxtilə Meloni ilə siyasi baxışlarda bəzi fərqlilikləri olsa da, onların münasibətləri uzun müddət davam edib. Meloni 2023-cü ilin oktyabrında Andrea Giambruno ilə münasibətinin bitdiyini sosial mediada açıqlamışdı. Bunun şəxsi həyatının "ən çətin qərarlarından biri" olduğunu yazmışdı. Onların ayrılmasına səbəb Andreanın qadınlar haqqında seksist şərhləri olmuşdu.

İtalyanca ilə yanaşı, Ciorcia Meloni ingilis dilini də yaxşı səviyyədə bilir. Bundan başqa, fransız və ispan dillərində də danışır. Beynəlxalq tədbirlərdə və xarici liderlərlə görüşlərdə dil baryeri olmadan sərbəst ünsiyyət qura bilir. Bu onun Avropa səviyyəsində daha çevik diplomatik fəaliyyət aparmasına kömək edir. Xanım baş nazirin stil və geyimində sadəlik və əlçatanlıq önə çıxır.

**Müğənni olmaq istəyirdi, amma..**

Silvio Berluskoni üçüncü dəfə İtaliyanın baş naziri seçiləndə (2008-2011) o, Meloni gənclər və idman naziri təyin edir. Onda 31 yaşlı Meloni İtaliyanın ən gənc naziri olur. Həmin vaxt hələ də anası ilə yaşayırdı. 2022-ci ildə baş nazir olandan sonra Giorgia Meloni mətbuata açıqlamasında uşaqlıq arzularının heç birinin gerçəkləşmədiyini etiraf edir. 2024-cü ilin fevralında o, İtaliya hökumətinə rəhbərlik etmək kimi uşaqlıq arzusunun olmadığını qeyd edib: "Müğənni olmaq istəyirdim, amma musiqiyə qulaq asmırdım, milli voleybol komandasında oynamaq istəyirdim, amma boyum yetərincə deyil, Maykl Ceksonla tanış olmaq istəyirdim, amma o, çox tez öldü".

Onu da deyək ki, 2024-cü ilin fevralında Meloni Avropa Komissiyasının sədri Ursula fon der Leyen və bir neçə G7 lideri ilə birlikdə Kiyevə getmiş, orada Ukrayna və İtaliya arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında saziş imzalamışdı. O, digər Avropa liderləri kimi Rusiyanın işğalçılıq siyasətini pisləyir. Meloni həm də abortun əleyhdarıdır. O, həmçinin surroqat anaya qarşıdır, bunu "21-ci əsrin köləliyi" adlandırıb və gender kimliyi mövzusunu tənqid edib. Həmçinin LGBT və eyncinsli evliliklər məsələsində olduqca sərt mövqeyi var, bunun əleyhinə çıxır. Ümumiyyətlə, Meloni Mussolinidən sonra İtaliyanın ikinci ifrat sağçı-millətçi lideri hesab olunur. Eyni zamanda ölkəsinin ilk qadın hökumət başçısıdır. Yeri gəlmişkən, Meloni dünya liderlərindən aldığı hədiyyələri xeyriyyə məqsədilə satışa çıxarıb. Hədiyyələrin ümumi dəyərinin təxminən 800 min avro (1,6 milyon manat) olduğu təxmin edilir.

**Meloninin Bakıya ikinci gəlişi**

Onun baş nazir olduğu dövrdə Azərbaycan-İtaliya əlaqələrinə gəlincə, 2024-cü ilin sentyabrında Romada Meloni Prezident İlham Əliyevlə görüşüb. Baş nazir Bakıda keçirilən COP29 konfransında da iştirak edib. Ümumiyyətlə, Azərbaycan və İtaliya arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsindədir. İtaliya Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın əsas siyasi, iqtisadi və ticarət tərəfdaşıdır. İtaliya Avropada Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır. Azərbaycan da İtaliyanın Cənubi Qafqaz ölkələri arasında ən iri ticarət tərəfdaşıdır ki, bu bölgədə İtaliyanın apardığı ticarətin 90 faizdən çoxu Azərbaycanın payına düşür. Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sahələrdə 100-dən çox İtaliya şirkəti fəaliyyət göstərir.

"Azərbaycanla İtaliya arasında enerji əməkdaşlığının strateji əhəmiyyəti Hörmüz böhranından sonra daha da aydın şəkildə üzə çıxıb". Bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov "Formiche.net" nəşrinə müsahibəsində bildirib.

Onun sözlərinə görə, geosiyasi qeyri-sabitlik dövründə əsas məsələ təkcə enerji məhsullarına əlçatanlıq deyil, həm də təchizat marşrutlarının etibarlılığı və təhlükəsizliyidir: "Bu baxımdan Azərbaycan uzun müddətdir İtaliya üçün etibarlı tərəfdaş kimi özünü sübut edib. 2025-ci ildə Azərbaycan TAP vasitəsilə İtaliyaya 9,5 milyard kubmetr qaz tədarük edib və bu, İtaliyanın ümumi qaz idxalının təxminən 16 faizini təşkil edib. TAP-ın fəaliyyətə başlamasından etibarən İtaliyaya 42 milyard kubmetrdən çox Azərbaycan qazı çatdırılıb. Bu, TAP-ın təkcə kommersiya uğuru deyil, həm də İtaliyanın enerji dayanıqlığının strateji sütunu olduğunu göstərir".

Göründüyü kimi, Azərbaycanla İtaliyanı bir-biri üçün cəlbedici edən çox amillər var. Elə xalqlarımız arasında mental oxşarlıqlar da az deyil. O baxımdan, çılğın Meloni təkcə Avropa siyasətində deyil, Azərbaycanda da sevənlər var...

**❑ Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"ın redaktoru**

# Şlaqbauma hörmətlə



Zamin HACI
zaminhaci@gmail.com

"Əgər millət azadlıqla şlaqbaum arasında seçim edərkən şlaqbaumu seçsə, düz yoldadır"
*(Benzamin Franklin)*

**Şəhərimizin iki küçəsinin kəsişməsində zəhmətkeşlər arasında kütləvi davanın videosu yayıldı, sonra dava iştirakçılarının bəziləri polis tərəfindən aşkar edilib götürüldü. Dava da insafən, gözəl dava idi, şillə-təpik havada uçurdu, hətta dava üzvlərindən biri haradansa tapıb gətirdiyi kətili rəqibinin, incəsənət termini ilə yazsam, tərəf-müqabilinin başına geydirmişdi.**

Belə şeylər olanda xaricdə adətən səbəbləri də yazırlar, araşdırıb tapırlar, o cümlədən adamların adı, hadisənin dəqiq ünvanı açıqlanır. Bizdə isə buna ehtiyac yoxdur. Biz adsız qəhrəmanlar ölkəsiyik. Əsas davanın özüdür. İndiki halda da ehtimal etmək olar ki, dava ya maşın saxlamaq üstündə olub, ya da biri o birinə zarafatla "peysər"-zad deyib. Ayrı nə səbəb olasıdır?

Ancaq ola bilər "Kitabi Dədə Qorqud dastanının müəllifi Kamal Abdulladır, yoxsa Anar" temasında fikir ayrılığı yaşansın. Ya da, nə bilim, "qara dəliklər ətrafında sinqulyarlıq həqiqətən varmı" mübahisəsi dava-dalaşla bitsin. Zarafat eləmirəm, 2000-ci illərdə mən "Kəmalə-Nərmin" şadlıq sarayında keçirilən toyda ciddi bir davanın şahidi olmuşdum, səbəb isə bu idi: dinozavrlar tüksüz imiş, ya yox?

Sözgəlişi, hazırda respublikamızda nəsə beynəlxalq urbanizasiya tədbiri keçirilir, iqlim konfransından sonra çoxlu yağış yağdı, yəqin bu tədbir bitəndə, Allah eləməsin, şəhərlərimiz dağılacaq. Axı həqiqətən Azərbaycan şəhərlərinin dünyaya örnək olası memarlıq quruluşu vardır. Hələ də xaricilər gəlib Biləcəridə səki olmayan küçədə piyadaların maşınlar arasında necə gəzməsini, Keşlənin su basan ərazilərini, Masazırın unikal arxitekturasını, Xutorun konstruktivizmini, nə bilim, Zabratın modernizmini öyrənirlər. Son davanın küçə kəsişməsinə təsadüf etməsi məndə istər-istəməz belə ehtimallara səbəb oldu ki, bəlkə gənclərimiz orada hansısa urbanizasiya problemlərini həll edirmişlər.

Bütün hallarda mən belə davaları alqışlayıram, dəstəkləyirəm, təbii seçmənin, təkamülün vacib elementi kimi qəbul edirəm. Qoy güclülər qalib gəlsin! (Hərçənd zəhmətkeşlərimizi bu yanlış "elmi" nəticədən uzaq olmağa səsləyirəm. Biləsiniz, güclülərin yox, uyğunlaşanların nəsli davam edir).

Diqqətli və sadiq oxucular, əlbəttə, bu sicilləmə girişin əslində müəllifin yazmaq istədiyi tamam başqa mövzuya keçid üçün olduğunu artıq anlamışlar. Məntiq də bunu deyir: əgər dava adi, gündəlik, normativ tələbləri qorumaqla aparılırsa, bundan nə yazasan? Əski bir qəzetçilik afyorizmində deyilən kimi, itin adamı dişləməyi xəbər deyil, adamın iti dişləməyi isə başqa məsələ!

Bu davanın videosunda ön plandakı bir qurğu mənim diqqətimi istər-istəməz özünə cəlb elədi. O qurğu... şlaqbaum idi! Dalaşanlar bir-birinə, dağa-daşa, divara dırmaşırdılar, lakin şlaqbaumun bəri üzünə keçmirdilər!

Heyrətamiz mənzərə idi. Dərhal görünürdü ki, bu dalaşan insanlar qanunlarımıza, milli qaydalara hörmətlə yanaşırlar. Şlaqbaum varsa, niyə keçəsən? Bəzən əhali küçə və məhəllələrə quraşdırılan icazəsiz, şəxsi şlaqbaumlardan narazılıq edir, onları sökdürürlər. Halbuki hər yer şlaqbaumlansa, dava da olmaz! İlkin olaraq bütün şadlıq saraylarının, restoranların, idman salonlarının, qəzet redaksiyaların və partiya qərargahlarının, ictimai hamam və diskotekaların, məktəb və universitetlərin ətrafında şlaqbaum qoyulmalıdır. Ondan sonra hüquqpozmaların statistikasına baxarsınız. Sıfır göstərməsə, adımı pozaram.

Sonda ana dilimizi qorumaq baxımından bir filoloji əlavəyə zərurət yarandı. O sözü bəzi vətəndaşlarımız "şıllaqbaum" kimi deyir, ancaq doğrusu "şlaqbaum"dur. Alman mənşəlidir, hərfi tərcüməsi "kəsik ağac" deməkdir. Son illər əcnəbi sözləri milliləşdirmək dəbdir, məsələn, şpilka ipəzor, plavki geyçim olub, bilirsiniz. Bəlkə biz şlaqbauma da "əyilkeç" deyək? Başqa versiyam da var idi, uşaq-muşaq oxuyar deyə yazmıram.

İndi söz əlaqədar təşkilatlarındır. Yazın görüm bu gün neçə şlaqbaum qurmusunuz?




# Bakı "Qara qitə"də güclənir - Efiopiya ilə sazişin pərdəarxası

## Hərbi ekspert deyir ki, Azərbaycan digər Afrika ölkələri ilə silah satışına dair müqavilələr bağlayır və müdafiə sənayesi sahəsinin coğrafiyasını genişləndirir

**Azərbaycanla Efiopiya arasında müdafiə sahəsində əməkdaşlıqla bağlı sazişin ötən həftəsonu Milli Məclisdə qəbul edilməsi rəsmi Bakı üçün yeni coğrafiyada - Afrikada hərbi-siyasi əlaqələrin genişləndirilməsi istiqamətində mühüm addım kimi qiymətləndirilə bilər. Azərbaycanla Efiopiya arasında münasibətlər indiyədək əsasən diplomatik və beynəlxalq təşkilatlar çərçivəsində formalaşıb. Hər iki ölkə BMT platformasında əməkdaşlıq edir və inkişaf etməkdə olan dövlətlər kimi oxşar maraqlara malikdir.**

Efiopiya Afrikanın ən böyük və strateji ölkələrindən biri hesab olunur. Onun yerləşdiyi region - Afrika Buynuzu - geosiyasi baxımdan mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın bu ölkə ilə hərbi əməkdaşlıq qurması təkcə ikitərəfli deyil, daha geniş regional kontekstdə qiymətləndirilir. İmzalanmış sazişin konkret detalları açıqlanmasa da, bu tip razılaşmalar adətən hərbi kadr hazırlığı və müdafiə sənayesi sahəsində əməkdaşlığı nəzərdə tutur. Bakı artıq yalnız regionla kifayətlənmir və müdafiə sahəsində coğrafiyasını genişləndirir. Azərbaycan istehsalı olan hərbi məhsullar üçün Afrika bazarı perspektivli hesab olunur.

Azərbaycan son illərdə öz müdafiə sənayesini inkişaf etdirərək pilotsuz uçuş aparatları və digər hərbi texnologiyalar sahəsində təcrübə qazanıb. Bu təcrübənin Afrika ölkələri ilə paylaşılması Bakının "yumşaq güc" alətlərindən biri kimi çıxış edə bilər. Azərbaycan son illərdə Afrika ölkələri ilə əlaqələri sistemli şəkildə genişləndirir. Xüsusilə Qoşulmama Hərəkatı çərçivəsində Bakı bir çox Afrika dövlətləri ilə siyasi dialoqu gücləndirib. Afrika ölkələri ilə münasibətlər beynəlxalq təşkilatlarda səs və dəstək baxımından əhəmiyyətlidir. Efiopiya isə Afrikada siyasi mərkəzlərdən biridir - Afrika İttifaqının qərargahı məhz paytaxt Addis Ababa şəhərində yerləşir. Bu da Azərbaycan üçün diplomatik baxımdan əlavə imkanlar yaradır. Azərbaycan-Efiopiya müdafiə əməkdaşlığı ilkin mərhələdə simvolik görünsə də, uzunmüddətli perspektivdə daha geniş hərbi, texnoloji və siyasi tərəfdaşlığa çevrilə bilər. Bu addım Azərbaycanın xarici siyasətində çoxşaxəli və qlobal yanaşmanın davam etdiyini göstərir.

Ümumiyyətlə, son zamanlar Afrika ölkələrinin dövlət və hökumət başçılarının ölkəyə səfərlərinin sıxlaşması diqqət çəkir. Ötən il fevralın 27-də Qvineya-Bisau Prezidenti Umaru Sisoku Bakıda olub. Ondan az əvvəl - fevralın 11-də Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud Azərbaycana rəsmi səfərə gəlmişdi. Azərbaycan bir çox Avropa ölkəsindən fərqli olaraq Afrika regionuna geri qalmış ya da əhəmiyyətsiz baxışı sərgiləmir. Əksinə, bütövlükdə qitənin, ayrılıqda isə spesifik Afrika ölkələrinin rolunu, yarada biləcəkləri iqtisadi və siyasi dividentləri dərk edir. Afrika qitəsində 54 ölkə mövcuddur, bu da BMT-yə üzv ölkələrin dörddə biri sayılır. Qoşulmama Hərəkatının üzvlərinin isə 40 faizə yaxını deməkdir. Ona görə Azərbaycanın Afrika dövlətləri ilə münasibətlərini yaxşılaşdırması beynəlxalq platformalarda ölkəmizin mövqeyinə uyğun məsələlərdə dəstək almaq üçün də vacibdir.

**Hərbi ekspert Ramil Məmmədli** bildirib ki, Azərbaycan inkişafda olan hərbi sənaye kompleksini piar edir və bu da dünyada qəbul edilən normadır. Onun sözlərinə görə, ölkəmizin hərbi sənaye məhsulları əsasən ərəb və Afrika ölkələrində təqdim olunur. Milli Məclisin Azərbaycan və Efiopiya arasında müdafiə sahəsində əməkdaşlıq haqqında sazişi ratifikasiya etdiyini deyən ekspert hesab edir ki, ölkəmiz müxtəlif bazarlara açılır: "Azərbaycan və Efiopiya arasında müdafiə sahəsində əməkdaşlıq sazişi imzalanıb, lakin konkret olaraq hansı silahların alınıb-verilməsi barədə ictimaiyyətə geniş məlumat verilməyib. Ancaq ölkəmiz müxtəlif atıcı silahlar və digər məhsulları sata bilər. Yeri gəlmişkən, Azərbaycanda istehsal olunan hərbi təyinatlı məhsullara marağı Səudiyyə Ərəbistanında keçirilən sərgidə gördüm. Yəni Efiopiya ilə bu saziş hər iki tərəf üçün dividentdir. Təbii ki, Azərbaycan bu sahədə böyük dövlətlərlə müqayisədə yeni addımlar atır. Ancaq son illərdə xeyli iş görülüb. Məsələn, biz müxtəlif növ atıcı silahlar və yaxın döyüş vasitələri, artilleriya alətləri, zirehli texnika istehsal edirik. Efiopiya üçün bu texnikalar maraqlı ola bilər. Həmçinin müxtəlif aviasiya bombaları, pilotsuz uçan cihazlar, atıcı silahlar üçün döyüş ləvazimatları, kiçik kalibrli avtomat tapançalar, optik cihazlar, müasir raket quraşdırıcıları və digər məhsullarımız var. Onlar da alıcıları cəlb edə bilər".

**R.Məmmədlinin dediyinə görə, Azərbaycan gizlənmə dəsti, qranatomyot, minalar, hətta NATO standartlarına cavab verən tapançalar istehsal edir:** "Məsələn, ötən il Əbu-Dabidə sərgi keçirildi. Azərbaycan çeşidli avtomatlar, müxtəlif çaplı minaatan qurğuları, artilleriya sistemləri, habelə optik nişangahları ilə cəlbedici idi. Üstəlik, PUA modellərimiz var idi".

**Hərbi şərhçi əlavə edib ki, Efiopiya Azərbaycanla dost ölkədir, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatında birgəyik:** "Bu ölkənin həmişə Eritreriya ilə münaqişəsi olub. İndi eskalasiya səngisə də, tərəflərin problemi həllini tapmayıb və müharibə riskləri qalır. Ancaq onu da deməliyəm ki, tək Efiopiya deyil, Azərbaycanın digər Afrika ölkələri ilə silah satışına dair bağladığı müqavilələr də diqqət çəkir. Somali, Qvineya-Bisaunun və digər Afrika ölkələri prezidentlərinin ölkəmizə səfəri zamanı ordu quruculuğu, müdafiə qabiliyyətinin yüksəldilməsi istiqamətində bağlanan müqavilələr bariz nümunədir. Afrika ölkələrinin birinci şəxslərinin Azərbaycana səfəri zamani bizim hərbi komplekslərə, xüsusi təyinatlı və komando hərbi hissələrinə baş çəkmələri, respublikanın müdafiə sənayesinin məhsulları ilə tanış olmaları xüsusi önəm kəsb edir. Çünki həmin ölkələrin müdafiə və təhlükəsizlik baxımından ciddi problemləri var və həmin problemləri onlar bizim dəstəyimizlə aradan qaldırmaq istəyirlər. Azərbaycanın digər sahələri də Afrika ölkələri liderlərinin diqqətindən kənarda qalmayıb".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

# Avropa İttifaqı Zəngəzur dəhlizindən pay istəyir

## Brüsselin prosesə gec qoşulmaq istəyi müəyyən suallar doğurur; **Milli Məclis üzvü ilginc məqamlar açıqladı:** “Əgər Aİ həqiqətən...”

**“EUObserver” nəşrinin məlumatına görə, Avropa İttifaqı “Trump Route for International Peace and Prosperity” (TRIPP) adlı nəqliyyat dəhlizi layihəsinə qoşulmaq niyyətindədir. Brüsselin qiymətləndirməsinə görə, bu marşrut Rusiyadan yan keçən alternativ ticarət yolu ola və Ermənistanı Avrasiya logistika zəncirlərinə daha dərindən inteqrasiya edə bilər.**

Aİ nümayəndəsinin sözlərinə görə, hazırda Çindən Avropaya yüklərin daşınması təxminən 42 gün çəkir, lakin Orta dəhliz səmərəli işləyərsə, bu müddət 12-13 günə qədər azala bilər. Bununla yanaşı, bəzi ekspertlər Avropa İttifaqını strateji liderliyin zəifliyi və qərarların ləngliyi səbəbindən tənqid edirlər. Onların fikrincə, bu vəziyyət regionda narazılıq yaradır və ABŞ-nin Cənubi Qafqazda təsirini gücləndirir.

Avropa İttifaqının Zəngəzur dəhlizi və ümumilikdə TRIPP layihəsinə maraq göstərməsi ilk baxışda iqtisadi təşəbbüs kimi təqdim olunsa da, məsələnin mahiyyəti daha çox geosiyasi rəqabətlə bağlıdır. Brüssel uzun müddətdir ki, Rusiyadan yan keçən alternativ nəqliyyat marşrutları axtarır və bu baxımdan Orta dəhliz onun üçün cəlbedici görünür. Lakin Aİ-nin prosesə gec qoşulmaq istəyi müəyyən suallar doğurur: bu, real strateji planın tərkib hissəsidir, yoxsa ABŞ-nin bölgədə artan fəallığına verilən gecikmiş reaksiya?

Reallıq ondan ibarətdir ki, Cənubi Qafqazda logistika layihələri artıq böyük güclərin rəqabət meydanına çevrilib. ABŞ-nin TRIPP kimi təşəbbüslərlə regionda mövqeyini gücləndirməyə çalışdığı bir vaxtda, Aİ-nin qərar verməkdə ləng davranması onun təsir imkanlarını zəiflədir. Bu isə Brüsselin regionda “oyun qurucu” deyil, daha çox “qoşulan tərəf” kimi çıxış etməsi riskini artırır. Digər tərəfdən, Zəngəzur dəhlizi təkcə iqtisadi layihə deyil, həm də siyasi həssas məsələdir. Ermənistanın bu marşrut vasitəsilə regional iqtisadi sistemə inteqrasiyası nəzəri olaraq mümkün görünsə də, praktikada təhlükəsizlik, suverenlik və regional balans kimi faktorlar prosesi mürəkkəbləşdirir. Aİ-nin bu incə məqamları nə dərəcədə nəzərə aldığı isə hələ aydın deyil. Ümumilikdə, Brüsselin təşəbbüsü region üçün yeni imkanlar vəd etsə də, gecikmiş qərarlar və vahid strategiyanın olmaması Aİ-nin bu oyunda əsas aktora çevrilməsini çətinləşdirir. **Deputat Elçin Mirzəbəyli** “Yeni Müsavat”a bildirdi ki, “EUObserver” nəşrinin yaydığı məlumat Avropa İttifaqının Cənubi Qafqaz və Orta Asiya istiqamətində geosiyasi maraqlarının yeni mərhələyə keçdiyini göstərir: “Brüsselin TRIPP layihəsinə maraq göstərməsi zahirdə iqtisadi-logistika təşəbbüsü kimi təqdim olunsa da, prosesin arxasında daha geniş geosiyasi və strateji məqsədlərin dayandığı aydın görünür. Əslində söhbət yalnız yükdaşımaların sürətləndirilməsindən deyil, Avrasiya məkanında yeni güc balansının formalaşdırılmasından gedir. Son illərdə qlobal ticarət marşrutlarının təhlükəsizlik və siyasi risklər səbəbindən yenidən dizayn olunması prosesi sürətlənib. Rusiya-Ukrayna müharibəsi, Qırmızı dənizdə təhlükəsizlik böhranı, Çin-Qərb münasibətlərində gərginliyin artması və enerji-logistika təhlükəsizliyi məsələləri Avropa üçün alternativ dəhlizlərin əhəmiyyətini ciddi şəkildə artırıb. Bu baxımdan Orta dəhliz - Çin, Mərkəzi Asiya, Xəzər hövzəsi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya uzanan marşrut artıq yalnız iqtisadi layihə deyil, strateji təhlükəsizlik platforması kimi qəbul olunur”. **E.Mirzəbəyli qeyd etdi ki, Avropa İttifaqının diqqətini xüsusilə cəlb edən məqamlardan biri də yükdaşımaların müddətidir:** “Hazırda Çindən Avropaya ənənəvi marşrutlarla daşınmaların 35-45 gün çəkməsi, Orta dəhlizin isə tam səmərəli fəaliyyəti zamanı bu müddətin 12-13 günə qədər azala bilməsi Brüssel üçün ciddi iqtisadi üstünlük vəd edir. Bu isə Avropa iqtisadiyyatının təchizat zəncirlərində çevikliyi artırmaq baxımından həyati əhəmiyyət daşıyır. Lakin burada diqqət çəkən əsas məsələ Avropa İttifaqının prosesə gecikmiş reaksiyasıdır. Brüsselin indiki fəallığı müəyyən qədər gecikmiş siyasi reaksiya təsiri bağışlayır. Çünki regionda ABŞ-nin aktivləşməsi və Vaşinqtonun TRIPP kimi təşəbbüslərlə Cənubi Qafqazda yeni geosiyasi mövqe qazanmağa çalışması Avropa İttifaqını daha fəal davranmağa məcbur edir”. **Milli Məclisin üzvü əlavə etdi ki, ABŞ bölgədə yalnız iqtisadi deyil, həm də siyasi-strateji təsir imkanlarını**



**genişləndirməyə çalışır:** “Aİ-nin burada əsas problemi isə strateji qərarvermə mexanizmlərinin ləngliyidir. Brüssel uzun müddətdir ki, qlobal geosiyasi proseslərdə iqtisadi nəhəng-siyasi cırtdan kimi xarakterizə olunur. Avropa İttifaqı maliyyə və texnoloji potensial baxımından böyük imkanlara malik olsa da, sürətli və vahid siyasi qərar qəbul etməkdə çətinlik çəkir. Xüsusilə də Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi regionlarda bu problem daha aydın görünür. ABŞ isə daha çevik davranır. Vaşinqton regional layihələrə daha operativ siyasi dəstək verir, təhlükəsizlik məsələlərini birbaşa geosiyasi strategiyanın tərkib hissəsi kimi təqdim edir və proseslərə daha aydın, birmənalı və vaxt itkisinə səbəb ola biləcək manevrlər etmədən diplomatik müdaxilə edir. Bu səbəbdən də Avropa İttifaqının mövqeyi daha çox prosesə sonradan qoşulan aktor reallığını yaradır”.

**E.Mirzəbəyli vurğuladı ki, digər mühüm məsələ Ermənistan faktorudur:** “Brüssel hesab edir ki, Zəngəzur dəhlizi və TRIPP layihəsi Ermənistanın regional iqtisadi sistemə inteqrasiyasını sürətləndirə bilər. Nəzəri baxımdan bu, mümkündür. Ermənistan uzun illər regional kommunikasiya layihələrindən kənarda qaldığı üçün ciddi iqtisadi və tranzit itkiləri ilə üzləşib. Yeni marşrutların açılması İrəvan üçün iqtisadi nəfəs yolu hesab oluna bilər. Lakin burada ciddi siyasi və təhlükəsizlik problemləri var. İrəvanda bəzi siyasi dairələr dəhlizi "suverenlik riski" kimi təqdim edir və prosesin Türkiyə-Azərbaycan tandeminin regional təsirini artıracağını düşünürlər. Eyni zamanda İran hesab edir ki, bu marşrut onun regiondakı tranzit üstünlüklərini zəiflədə və Türkiyə-Qərb xəttinin təsirini gücləndirə bilər".

**Analitik bildirdi ki, Rusiyanın da prosesə münasibəti tam neytral deyil:** “Moskva regionda nəqliyyat-kommunikasiya layihələrinin öz nəzarətindən kənarda inkişaf etməsini strateji risk kimi qiymətləndirir. Belə bir mürəkkəb geosiyasi mənzərədə Azərbaycanın rolu xüsusi əhəmiyyət daşıyır. Azərbaycan artıq təkcə enerji ixracatçısı deyil, Avrasiyanın əsas logistika və kommunikasiya mərkəzlərindən birinə çevrilməkdədir. Rəsmi Bakı uzun illərdir həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət nəticəsində həm Qərb, həm Türkiyə, həm Mərkəzi Asiya, həm də digər regional aktorlarla münasibətlərdə çevik manevr imkanları əldə edib. Bu isə Azərbaycanın Orta dəhlizdə əsas açar dövlət statusunu gücləndirir. Bunun üçün daha çevik siyasi qərarlar, təhlükəsizlik məsələlərinə realist yanaşma və region dövlətlərinin, xüsusilə də Azərbaycanın mövqeyini və maraqlarını nəzərə alan uzunmüddətli strategiya tələb olunur. Əks halda, Cənubi Qafqazda formalaşan yeni logistika və geosiyasi arxitekturanın əsas konturları Aİ-nin iştirakı olmadan müəyyənləşəcək”.

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**

## Ermənistan bu şərtlə Aİ üzvü olacaq?

Ermənistan Avropa İttifaqına (Aİ) üzvlüklə bağlı qərarı özü verəcək. Bu barədə Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallas “AzadlıqRadiosu”nun erməni xidmətinə bildirib.

“Ermənistan qərarlarını özü qəbul edir. Bir ay sonra, əlbəttə ki, seçkilər keçiriləcək. Avropa perspektivi müzakirə olunur və Ermənistan bu məsələ ilə bağlı qərarı özü verəcək”, - Kaya Kallas qeyd edib.

Bəs bir ay sonra seçkilərdə Nikol Paşinyan qalib gəlsə, Ermənistanın Avropa İttifaqına üzvlüyü üçün praktiki addımlar atması gözlənilirmi? Kallasın dediyindən belə çıxırmı Ermənistan özü istəsə, Aİ onu qəbul edəcək?

**Politoloq Məhəmməd Əsədullazadə** “Yeni Müsavat”a bildirib ki, Ermənistanda parlament seçkilərində Nikol Paşinyan qalib gələrsə, ölkəsinin Avropa İttifaqına üzvlük məsələsini gündəmə gətirə bilər. Amma bunun reallaşması mümkün deyil: "İlk növbədə bu, Cənubi Qafqazda yeni bir geosiyasi nizamın meydana gəlməsi demək olar ki, buna da Rusiya imkan verməz. Ermənistan öncə Rusiyanın orbitində olan təşkilatlardan tam rəsmi çıxmalıdır. İrəvan bunu etmək istəsə, Moskvanın reaksiyası necə olacaq bu sual olaraq qalır. Həmçinin Ermənistanın Avropa Birliyi ilə quru əlaqəsi yoxdur. Gərək Türkiyə də bu quruma daxil edilsin. Digər tərəfdən, Avropa İttifaqı ilə Gürcüstan arasında məsələlər də problem olaraq qalır. Avropa Cənubi Qafqaz ölkələrinə eyni region kimi baxır. Avropa İttifaqı region ölkələrinin üçünü də ittifaqa daxil etməlidir. Bu isə yaxın perspektivdə mümkün görünmür. Kaya Kallas bu çıxışı seçkidə Paşinyanın mövqeyinə müsbət təsir etmək üçün edib. Ermənistanın tezliklə Aİ-yə daxil olması mümkün görünmür".

❑ **Etibar SEYİDAĞA, Musavat.com**

Yeni MÜSAVAT
N 17 (8866) 6 may 2026

# Evdə it-pişik saxlamaq dəbi

## Sosioloq: "Bakıda evlərdə heyvanı qeyri-azərbaycanlılar saxlayardı, indi isə..."



**Sahibsiz heyvan sığınacaqlarına dair baytarlıq-sanitariya norma və qaydaları 2026-cı il mayın 4-dən qüvvəyə minib. Yaşayış (fərdi inşa edilmiş ayrıca bina istisna olmaqla), ictimai, inzibati və istehsalat binalarında sığınacaqların yaradılmasına yol verilməyəcək. Sığınacaqlar epizootik cəhətdən sağlam olan ərazilərdə yerləşdirilməli və ərazinin epizootik vəziyyəti daim nəzarətdə saxlanılmalıdır.**

Sığınacaqlar yaşayış sahələri, ictimai təyinatlı və ya ümumi istifadədə olan obyektlərdən və su hövzələrindən (axar su mənbələrindən) aşağıdakı ara məsafələri (sanitar-mühafizə zolaqları) gözlənilməklə yerləşdiriləcək: avtomobil yollarından - 30 metr; fermalardan - 100 metr; su hövzələrindən - 100 metr; sənaye müəssisələrindən - 100 metr; yaşayış binalarından - 100 metr.

Həmçinin tibbi müayinədən keçməyən, vərəmli xəstə, eləcə də bədənində irinli açıq yarası, qoturluğu olan, habelə yaşı 18-ə çatmayan şəxslərin heyvanlara xidmət etməsinə icazə verilməyəcək.

Sığınacaqda çalışan bütün işçilər heyvanlardan keçə biləcək xəstəliklərə qarşı peyvənd edilməli və heyvanların baxımı, təlimi və xəstəlikləri barədə baytarlıq mütəxəssisi tərəfindən məlumatlandırılmalıdır.

Sığınacaqda çalışan hər bir şəxs gigiyena qaydalarına ciddi riayət etməli, təmiz xüsusi geyimlə (xalat, önlük və s.) və fərdi mühafizə vasitələrilə (əlcək, maska, respirator, eynək) təmin edilməlidir. Hər bir heyvanda aparılan baytarlıq xidmətlərindən sonra əlcəklər yenilənməlidir. Baytarlıq preparatlarının və yemlərin saxlanıldığı otaq və ya bölməyə işçi heyətindən başqa kənar şəxslərin girişinə icazə verilməməlidir.

Bəs yeni qaydalar evdə heyvan saxlayan şəxslərə də aid ediləcəkmi? Evdə heyvan saxlayan şəxsləri hansı halda cəza gözləyir?

Qeyd edək ki, hazırda həm dünyada, həm də ölkəmizdə ev heyvanı bəsləmək dəb halını alıb. Ev heyvanı dedikdə ilk ağıla gələn it və pişik olur. Bəzən şahidi oluruq ki, evlərdə nəinki ev heyvanı, hətta vəhşi heyvan saxlayanlar da tapılır. "Heyvanlar aləmi haqqında" Qanunun 53-cü maddəsinə əsasən, heyvanlarla rəhmsizcəsinə davranılması nəticəsində onların şikəst və ya tələf edilməsi məsuliyyətə səbəb olur.

Mütəxəssislər qeyd edir ki, yeni qaydalar əslində sahibsiz heyvan sığınacaqlarına aiddir. Yəni bu qaydalar evində 1-2 heyvan saxlayan vətəndaşa yox, peşəkar sığınacaq yaradanlara və çoxsaylı heyvan saxlayan obyektlərə şamil olunur.

Cəza məsələsi isə bu hallarda yarana bilər: Qonşulara narahatlıq, səs-küy (məsələn, davamlı hürmə), pis qoxu, antisanitar şərait, heyvanların baxımsız saxlanması, xəstə heyvanların nəzarətsiz qalması, heyvana qarşı qəddarlıq - döymək, ac saxlamaq, yaralamaq, mənzildə 10-larla heyvan saxlayıb, "mini sığınacaq" yaratmaq. Bu halda artıq sığınacaq kimi qiymətləndirilə bilər və yeni qaydalar tətbiq oluna bilər.

Niyə insanlar son illərdə daha çox heyvan saxlayır?

Mövzu ilə bağlı **sosioloq Üzeyir Şəfiyev** "Yeni Müsavat"a danışıb. Sosioloq qeyd edib ki, Azərbaycanda ötən əsrin 70-80-ci illərində evlərdə heyvan saxlamaq daha çox paytaxtda və iri şəhərlərdə qeyri-azərbaycanlılar arasında yayılmışdı: "Məsələn, ruslar və digər xalqların nümayəndələri evlərdə it və pişik saxlayırdılar. Şəhər mühitində itin ev şəraitində saxlanılmasına yerli əhali tərəfindən o dövrdə bir qədər ehtiyatla yanaşılırdı. Bunun səbəblərindən biri də dini dəyərlərlə bağlı idi. Belə yanaşmalar mövcud idi ki, "it olan yerdə namaz qılınan məkanın təmizliyi pozula bilər" və s. Son illərdə isə vəziyyət tamamilə dəyişib. Ev heyvanı saxlamaq sanki bir dəbə və hətta yarışa çevrilib. "Başqasında varsa, məndə də olmalıdır" yanaşması formalaşıb. İnsanlar bəzən yüksək məbləğlər xərcləyərək bahalı it və pişiklər alırlar. Bununla belə, təəssüf ki, küçələrdə çox sayda atılmış ev heyvanlarına da rast gəlinir. Bu isə göstərir ki, bir qismi heyvanı alır, müəyyən müddət saxlayır, sonra isə məsuliyyətsiz şəkildə küçəyə buraxır. Nəticədə şəhərlərdə sahibsiz it və pişiklərin sayı artır".

**Sosioloqun fikrincə, bu tendensiyanın formalaşmasında sosial şəbəkələrin, xarici filmlərin və serialların təsiri də az deyil:** "Bir çox hallarda bu, real ehtiyacdan deyil, təqlid və trendə qoşulma meylindən qaynaqlanır. Kiminsə heyvan saxlaması digəri üçün də "mütləq olmalıdır" düşüncəsinə çevrilir. Bəzi insanlar hətta ev heyvanlarına xüsusi adlar qoyur, onlar üçün təmtəraqlı mərasimlər də təşkil edirlər. Bu isə bir tərəfdən ailə büdcəsinə ciddi əlavə xərclər yaradır. Çünki ev heyvanlarının alınması, saxlanması, yemlənməsi, baytarlıq xidmətləri və gigiyenik baxımı kifayət qədər maliyyə tələb edir. Xarici ölkələrdə bu daha çox formalaşmış bir həyat tərzi kimi qəbul edilsə də, bizdə bəzən imitasiya xarakteri daşıyır.

Eyni zamanda bu tendensiya ictimai narahatlıq da yaradır. Bəzi hallarda evlər nə qədər təmiz saxlanılsa belə, ev heyvanlarının olması səbəbilə qoxu və gigiyena ilə bağlı problemlər ortaya çıxır. Xüsusilə çoxmənzilli binalarda bu, qonşular arasında ciddi narazılıqlara səbəb olur və gündəlik yaşayış komfortunu azaldır. Digər tərəfdən, həyət evlərində itlərin gecələr hürməsi, bəzən insanlara hücum halları da sosial narahatlıq doğurur. Bu kimi hallar təhlükəsizlik baxımından da risk yaradır.

Bütün bu problemlər onu göstərir ki, məsələyə daha sistemli yanaşma lazımdır. Hesab edirəm ki, həm maarifləndirmə işi gücləndirilməli, həm də hüquqi tənzimləmə mexanizmləri formalaşdırılmalıdır. Birgə yaşayış binalarında birgəyaşayış qaydalarının pozulması, qonşuluq münasibətlərində narahatlıq və gigiyenik problemlər nəzərə alınmalıdır. Eyni zamanda sahibsiz heyvanlarla yanaşı ev heyvanlarının saxlanılması ilə bağlı da aydın qaydaların və nəzarət mexanizmlərinin olması vacibdir. Bu, həm ictimai sağlamlıq, həm də sosial harmoniyanın qorunması baxımından əhəmiyyətlidir".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Hamı onun gecələr gəlməməsindən şikayətçidir

## Ekspertlərə görə, həyat tərzi də yuxunun keyfiyyətinə təsir edir



**Gecə yarısı heç bir səbəb olmadan oyanmaq bir çox insanın qarşılaşdığı ümumi problemdir. Bəzən bu hal təsadüfi görünsə də, əslində orqanizmin fizioloji prosesləri, psixoloji vəziyyət və gündəlik vərdişlərlə sıx bağlıdır.**

İnsan yuxusu gecə boyu müxtəlif mərhələlərdən ibarətdir. Dərin yuxu, yüngül yuxu və REM (yuxu görmə mərhələsi) dövrləri bir-birini əvəz edir. Xüsusilə yüngül yuxu mərhələsində beyin xarici stimullara daha həssas olur. Bu səbəbdən kiçik səs, işıq və ya bədən hərarətində dəyişiklik belə insanı oyada bilər.

Psixoloji faktorlar da mühüm rol oynayır. Stress, narahatlıq və gündəlik gərginlik sinir sistemini aktiv saxlayır. Beyin tam "söndürülmədiyi" üçün gecənin ortasında qəfil oyanmalar baş verə bilər. Xüsusilə düşüncələrin çox olduğu dövrlərdə bu hal daha tez-tez müşahidə olunur.

Bundan başqa, həyat tərzi də yuxunun keyfiyyətinə təsir edir. Yatmazdan əvvəl istifadə edilən telefon və ekran işığı melatonin hormonunun ifrazını azaldır və yuxu ritmini pozur. Kofeinli içkilərin gec saatlarda qəbulu, qeyri-sağlam qidalanma və nizamsız yuxu rejimi də gecə oyanmalarını artırır.

Bəzi hallarda isə tibbi səbəblər rol oynaya bilər. Yuxu apnesi, hormonal dəyişikliklər və ya bəzi xəstəliklər gecə tez-tez oyanmaya səbəb olur.

Nəticə olaraq, gecəyarısı oyanmalar həmişə ciddi problem olmasa da, təkrarlanırsa, səbəbi araşdırmaq vacibdir. Sağlam yuxu üçün düzgün rejim, stressin azaldılması və rahat yuxu mühiti böyük əhəmiyyət daşıyır.

Bir çox insan gecə yuxudan oyanaraq, xüsusilə saat 3 radələrində, sonra isə yenidən yuxuya getməkdə çətinlik çəkdiyini müşahidə edir. Uorik Universitetinin psixi sağlamlıq üzrə ekspertləri bildirib ki, bu halın özü hələ pozuntu hesab edilmir.

"Qaynarinfo" xəbər verir ki, yuxu fasiləsiz bir vəziyyət deyil. Gecə ərzində 90-110 dəqiqə davam edən dövrlər bir-birini əvəz edir. Bu dövrlər yüngül, dərin və REM (sürətli yuxu) fazalarından ibarətdir. Orta hesabla yetkin insan gecə ərzində dörd-altı belə dövr keçirir və dövrlərin sonunda - yuxu daha səthi olduğu zaman - qısa oyanmalar təbii şəkildə baş verir. Gecənin ilk saatlarında dərin yuxu üstünlük təşkil etdiyi üçün səhərə yaxın oyanmalar daha tez-tez müşahidə olunur.

Ekspertlərin fikrincə, problem bu oyanmaların uzanması və ya müntəzəm hal alması zamanı yaranır. Burada əsas rol stressə aiddir: səhərə yaxın orqanizmdə kortizol səviyyəsi artır və bu, bədəni oyanmağa hazırlayır. Lakin əgər insan artıq narahat düşüncələr içindədirsə, bu təbii proses asanlıqla obsesiv fikirlərə və yuxusuzluğa səbəb ola bilər. Həyat tərzi də yuxunun keyfiyyətinə təsir edir. Alkoqol yuxuya getməyə kömək etsə də, gecənin ikinci yarısında yuxunu daha parçalanmış edir.

Kofein - günün ikinci yarısında qəbul edildikdə belə - bədəndə saatlarla qala bilir və gecə oyanmalarını artırır. Bundan əlavə, qeyri-müntəzəm yuxu rejimi, yatmazdan əvvəl ekran istifadəsi və ya yataq otağının uyğun olmaması da yuxunu pisləşdirə bilər. Əgər gecə oyanmaları davamlı hal alırsa, "pis dövrə" yarana bilər: beyin yatağı oyaqlıq və stresslə əlaqələndirməyə başlayır və bu, yenidən yuxuya getməyi daha da çətinləşdirir. Bu halların korreksiyası üçün koqnitiv-davranış terapiyası kimi üsullar tövsiyə oluna bilər.

Ekspertlərin sözlərinə görə, yuxunu yaxşılaşdırmaq üçün sadə vərdişlər kifayət edə bilər: hər gün eyni saatda oyanmaq, yatmazdan əvvəl sakitləşmək, kofein və alkoqoldan imtina etmək, eləcə də rahat mühit yaratmaq. Əgər insan uzun müddət yuxuya gedə bilmirsə, qısa müddətlik yataqdan qalxmaq və yalnız yuxu gələndə geri qayıtmaq tövsiyə olunur.

Ümumilikdə, səhərə yaxın oyanmalar çox yayılmış və təbii bir haldır. Bu prosesin arxasındakı bioloji və psixoloji mexanizmləri anlamaq onu daha az narahatedici edir və daha asan idarə olunmasına kömək edir.

❑ **"Yeni Müsavat"**

# Mərkəzi Bank bu gün nə qərar verəcək?

## İqtisadçının fikrincə, faiz dərəcələrində dəyişikliyə gedilməyəcək

**Azərbaycan Mərkəzi Bankı (AMB) bu həftə növbəti dəfə uçot faiz dərəcəsi ilə bağlı qərar verəcək. Tənzimləyicinin əvvəlcədən elan etdiyi kimi, mayın 6-da bununla bağlı mətbuat konfransı keçiriləcək.**




Xatırladaq ki, AMB ilin əvvəlində uçot dərəcəsini 0,25 faiz bəndi azaldaraq 6.5 faizə, faiz dəhlizinin aşağı həddini 5.5 faizə, faiz dəhlizinin yuxarı həddini isə 7.5 faiz səviyyəsinə endirib. Aprelin 2-də dərəcələrə yenidən baxılıb, lakin dəyişiklik edilmədən saxlanıb.

Tənzimləyici bildirir ki, faiz dəhlizi ilə bağlı qərar qəbul olunarkən faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf intervalı (4±2%) ilə uzlaşması, yaxın regionda artan geosiyasi gərginliklərin yaratdığı risklər, qlobal və daxili maliyyə bazarlarındakı mövcud vəziyyət, daxili makroiqtisadi meyillər, eləcə də pul siyasəti qərarlarının real sektora ötürücülüyünün xüsusiyyətləri əsas götürülür.

Həmçinin qeyd edilir ki, faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar proqnoz və faktiki inflyasiyanın istiqaməti, habelə makroiqtisadi təhlillərin yenilənmiş nəticələri əsasında veriləcək.

Qeyd edək ki, İran-ABŞ münaqişəsi dünya ticarətinin mühüm hissəsinin keçdiyi dəniz yolunda hərəkətin kəskin məhdudlaşmasına səbəb olub. Bu məhdudiyyət xüsusilə enerji bazarında qiymətlərin iki dəfəyə yaxın artmasına gətirib çıxarıb. Dünya Bankının məlumatına əsasən aprel ayında dünya bazarında neftin orta qiyməti 103,91 dollara bərabər olub. Bu, 2025-ci ilin eyni dövründəki qiymətlərdən 36,5 faiz yüksəkdir.

Hörmüz boğazı və Fars körfəzində gəmiçilik üçün yaradılan maneələr yalnız enerji deyil, kənd təsərrüfatı istehsalı üçün zəruri olan gübrələrin daşınmasında da ciddi problemlərə səbəb olub. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və BMT-nin birgə xəbərdarlığına görə, bu, cari ildə ərzaq məhsullarının qiymətlərində ciddi bahalaşmaya səbəb olacaq.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, münaqişənin ilk ayı olan martda qlobal Ərzaq Qiymətləri İndeksi (FPII) orta hesabla 128,5 bal təşkil edib ki, bu da fevral ayı səviyyəsindən 3,0 bal (2,4 faiz), ötən ilin eyni dövründəkindən 1 faiz çoxdur.

İran ətrafındakı gərginliyin yaratdığı şərtlər enerji qiymətlərindəki artım səbəbindən Azərbaycan üçün komfortludur: 2026-cı ilin aprel ayında "Azeri Light" markalı Azərbaycan neftinin bir barelinin orta qiyməti 122,32 ABŞ dolları təşkil edib. Bu, cari il üçün aparılan makroiqtisadi proqnozlaşdırmanın əsaslandığı, dövlət büdcəsində yer alan 65 dollarlıq qiymətin az qala ikiqatıdır. Bu mənada, neft qiymətlərinin yüksək olduğu hər gün ölkəyə bir neçə milyon dollar əlavə gəlirin daxil olması deməkdir.

Lakin xüsusilə ərzaq təminatında idxaldan ciddi asılılığımız fonunda qlobal bazarlardakı bahalıq həm ölkədən daha çox valyutanın çıxmasına, həm də daxildə inflyasiyanın sürətlənməsinə səbəb olacaq. Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən 2026-cı ilin yanvar-mart aylarında istehlak qiymətləri 2025-ci ilin yanvar-mart aylarına nisbətən 5,7 faiz, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,8 faiz, qeyri-qida məhsulları üzrə 3,6 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz artıb.

2025-ci ilin mart ayı ilə müqayisədə illik qiymət artımı 5,6 faiz, son bir ayda isə 0,5 faiz təşkil edib. Bu zaman qida məhsulları fevralla müqayisədə 1 faiz, ötən ilin martı ilə müqayisədə 6,4 faiz, yanvar-mart üzrə keçən ilin eyni dövrü ilə müqayisədə isə 6,6 faiz artıb.

**Bu şəraitdə Azərbaycanda xarici valyutaya tələbin kəskin azalması diqqəti cəlb edir. Belə ki, Mərkəzi Bankın məlumatına əsasən, profisitli cari əməliyyat balansı və dedollarizasiya meyillərinin davam etdiyi şəraitdə cari ilin ötən aylarında valyuta bazarında təklif tələbi üstələyib, ölkənin valyuta ehtiyatlarında artım davam edib. Valyuta bazarında təklifin tələbi üstələməsi həm nağd, həm də qeyri-nağd seqmentlərdə müşahidə olunub:** "Son dövrlər valyuta hərraclarında tələbin aşağı olması nəticəsində valyuta bazarında təklif artıqlığı formalaşıb və bu şəraitdə Mərkəzi Bank tərəfindən aprel ayı ərzində 1 milyard ABŞ dolları məbləğində alışyönlü müdaxilə həyata keçirilib. Nəticədə, valyuta ehtiyatlarının idarə edilməsindən əldə olunan gəlirlər də nəzərə alınmaqla, aprel ayında Mərkəzi Bankın valyuta ehtiyatları 1 milyard 29,7 milyon ABŞ dolları artıb".

**Tənzimləyici bildirir ki, aprel ayında alınmış 1 milyard ABŞ dollarının tam və ya bir hissəsi il ərzində bazarda formalaşacaq tələbdən asılı olaraq tarazlığın təmin edilməsi məqsədilə yenidən valyuta bazarına yönəldilə bilər:** "Makroiqtisadi sabitliyin qorunması məqsədilə Mərkəzi Bank valyuta bazarında alış və ya satışyönlü əməliyyatlarla iştirakını davam etdirdiyi təqdirdə bu barədə məlumat açıqlanacaq".

Bütün bunların fonunda AMB-nin faiz qərarı necə olacaq? **İqtisadçı Eldəniz Əmirov**un fikrincə, tənzimləyici faiz dərəcələrində dəyişikliyə getməyəcək: "İndiki şəraitdə faizlərin azaldılması ən az ehtimal olunandır, çünki inflyasiya proqnoz diapazonundadır, lakin beynəlxalq geosiyasi şərait dəyişməsə, daha da sürətlənə bilər. Enerji qiymətlərindəki artım qlobal səviyyədə inflyasiyanı sürətləndirir və bu prosesin ölkəmizə də təsiri qaçılmazdır. Buna görə də düşünürəm ki, Mərkəzi Bank uçot dərəcəsini dəyişməz saxlayacaq, bir növ, pauza götürəcək".

**Ekspertə görə, əgər qarşıdakı dövrdə inflyasiya azalarsa, o zaman faiz dərəcələrinin endirilməsini gözləmək olar:** "Lakin hesab edirəm ki, hazırkı şərtlər daxilində inflyasiyanın azalması gözlənilmədiyinə görə Mərkəzi Bankın ən optimal qərarı dərəcələrin dəyişilməz saxlanması ola bilər".

**İqtisadçı-alim, millət vəkili Vüqar Bayramovun "Yeni Müsavat"a dediyinə görə, Mərkəzi Bank qərarlarını qəbul edərkən inflyasiya səviyyəsi, makroiqtisadi sahədəki vəziyyəti nəzərə alır:** "Bu baxımdan, qərar qeyd etdiyim göstəricilərdəki dəyişikliklərdən asılıdır. Ümumiyyətlə götürdükdə, Mərkəzi Bankın faiz qərarları ilə bağlı vacib məqamlardan biri onların ölkədəki kredit faizlərinə real təsiridir. Hələlik biz Mərkəzi Bakın faiz qərarlarının kredit faizlərinə xüsusi bir təsirini görmürük, depozit faizlərinə təsir isə çox cüzidir. Buna görə də əsas məsələlərdən biri Mərkəzi Bankın uçot dərəcəsi ilə kredit və depozit faizlərinin effektiv əlaqəsinin təmin olunması, uçot stavkasının bu baxımdan vacib alətlərdən birinə çevrilməsinə nail olmaqdan ibarətdir. Buna görə də Mərkəzi Bankın qarşıdakı dövrdə əsas vəzifəsi uçot dərəcəsini kredit-depozit faizlərinə effektiv təsir edən bir alətə çevirmək olmalıdır".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Azərbaycanın Aİ ölkələri ilə ticarət dövriyyəsi

**Bu ilin yanvar-mart aylarında Azərbaycan və Avropa İttifaqına (Aİ) üzv ölkələr arasında ticarət dövriyyəsinin həcmi 4,104 milyard ABŞ dolları olub.**

İqtisadiyyat.az Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, bu, 2025-ci ilin eyni dövründəki göstərici ilə müqayisədə 1,2 milyard ABŞ dolları və yaxud 22,3% azdır.

Hesabat dövründə Azərbaycanın Aİ ölkələrinə ixracının dəyəri 23,5% azalaraq 3,540 milyard ABŞ dolları, idxalının dəyəri isə 13,6% azalaraq 564,023 milyon ABŞ dolları olub.

Hesabat dövrü ərzində Aİ ölkələrinin Azərbaycanın ümumi ixracında payı 65,53%, idxalında payı isə 14,09% olub.

2025-ci ildə isə Azərbaycan və Avropa İttifaqına (Aİ) üzv ölkələr arasında ticarət dövriyyəsinin həcmi 19,770 milyard ABŞ dolları olub.

Məlumata əsasən, bu, 2024-cü ildəki göstərici ilə müqayisədə 177,4 milyon ABŞ dolları və yaxud 0,9% çoxdur.

Hesabat ilində Azərbaycanın Aİ ölkələrinə ixracının dəyəri 0,8% artaraq 16,9 milyard ABŞ dolları, idxalının dəyəri isə 1,6% artaraq 2,826 milyard ABŞ dolları olub.

Hesabat ili ərzində Aİ ölkələrinin Azərbaycanın ümumi ixracında payı 67,66%, idxalında payı isə 11,59% olub.

# Alaniya Ticarət və Sənaye Palatası ilə əməkdaşlıq müzakirələri

**Azərbaycan və Alaniya Ticarət və Sənaye Palatası arasında ticarət və investisiya sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.**

İqtisadiyyat Nazirliyi xəbər verir ki, bu müzakirələr nazir müavini Anar Axundovun Türkiyənin Alaniya Ticarət və Sənaye Palatasının İdarə Heyətinin sədri Eray Erdemin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə aparılıb.

Görüşdə Azərbaycanla Türkiyə arasında iqtisadi əlaqələrin inkişaf dinamikası, qarşılıqlı ticarət və investisiya əməkdaşlığının genişləndirilməsi üçün mövcud potensial vurğulanıb. Tərəflər işgüzar dairələr arasında əlaqələrin gücləndirilməsinin, birgə layihələrin təşviqinin və investisiya imkanlarının dəyərləndirilməsinin hər iki ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətini qeyd ediblər.

Görüşdə Alaniya Ticarət və Sənaye Palatası ilə sənaye, turizm, kənd təsərrüfatı və xidmət sahələrində əməkdaşlığın genişləndirilməsi perspektivləri nəzərdən keçirilib.

# Biznes kredit portfeli böyüyüb

**Bu ilin aprelin 1-nə Azərbaycan banklarının informasiya və rabitə sektoru üzrə biznes kredit portfeli 777,8 milyon manat təşkil edib.**

Bu barədə Azərbaycan Mərkəzi Bankı (AMB) xəbər verir.

Məlumata əsasən, sözügedən sahə üzrə kredit portfeli aylıq müqayisədə 12,9 milyon manat və ya 1,7%, ötən ilin eyni dövrünə nisbətən isə 141,9 milyon manat 22,3% artıb.

Belə ki, informasiya və rabitə sektoru üzrə banklar tərəfindən verilmiş biznes kreditlərin məbləği 2026-cı ilin martın 1-nə 764,9 milyon manat, ötən ilin aprelin 1-nə isə 635,9 milyon manat təşkil edib.

Qeyd edək ki, 2026-cı ilin aprelin 1-nə Azərbaycanda bankların kredit portfeli 30,290 milyard manat olub. Kredit portfelinin strukturunda biznes kreditləri 53,5% (16,215 milyard manat), istehlak kreditləri 31,3% (9,491 milyard manat) və ipoteka kreditləri 15,2% (4,585 milyard manat) təşkil edib.

YENİ MÜSAVAT
N 17 (8866) 6 may 2026

# Azərbaycanın axtardığı qumarbazın yeri bilindi

## Qarabağa qanunsuz səfər edən Dan Bilzerian indi də konqresmen olmaq istəyir



**2018-ci ildə erməniəsilli pleboy və qumar oyunçusu Dan Bilzerian həmin dövrdə işğal altında olan Azərbaycan ərazilərinə qanunsuz səfər edib və orada erməni silahlı qruplaşmalarının təlim poliqonunda müxtəlif növ silahlardan atəş açıb. "Yeni Müsavat" Haqqın.az-a istinadən xəbər verir ki, indi o indi də ABŞ Konqresinin Nümayəndələr Palatasına Florida ştatından namizəd olmağı planlaşdırır. Bilzerianın rəqibi hazırkı konqresmen, respublikaçı Randy Finedır.**

Bir neçə gün əvvəl "The Jenny Beth Show" proqramında çıxış edən Fine bildirib ki, o, erməninin Konqresə seçilməsinə qarşıdır.

"Biz ermənilərin Konqresdə işləməsini istəmirik", - deyə konqresmen vurğulayıb.

ABŞ-dəki erməni lobbi təşkilatları dərhal Fineyə qarşı kampaniya başladaraq onu "milli ayrı-seçkilikdə" ittiham ediblər.

Bilzerian poker ustası və qalmaqallı həyat tərzi ilə tanınır. O, Ermənistanın sabiq prezidenti Robert Köçəryanın oğlu Levon Köçəryanla dostdur. 2018-ci ildə işğal olunmuş Azərbaycan ərazilərinə səfəri zamanı onu məhz Levon müşayiət edib.

Bu qanunsuz səfərlə əlaqədar Azərbaycan Baş Prokurorluğu Bilzerian barəsində cinayət işi açıb və məhkəmə onun haqqında qiyabi həbs qərarı çıxarıb. Onun beynəlxalq axtarışa verilməsi üçün "İnterpol"a müraciət edilib.

Baş Prokurorluğun məlumatına görə, Bilzerian Ermənistan və işğal olunmuş ərazilərdə fəaliyyət göstərən şəxslərlə cinayət əlaqələrində olub, Xankəndi şəhəri və digər işğal olunmuş yaşayış məntəqələrinə müvafiq sənədlər olmadan və dövlət sərhəd-buraxılış məntəqələrindən keçmədən daxil olub. Bununla o, Azərbaycan Respublikasının "Dövlət sərhədi haqqında" Qanunu və Miqrasiya Məcəlləsini pozub.

İstintaq zamanı həmçinin müəyyən edilib ki, Bilzerian işğal olunmuş ərazilərdə qanunsuz əldə edilmiş odlu silahlardan, qumbaraatanlardan, tüfənglərdən və digər silah növlərindən istifadə edib.

Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi onun barəsində Cinayət Məcəlləsinin 228.3-cü (qanunsuz silah dövriyyəsi) və 318.2-ci (qanunsuz sərhəd keçidi) maddələri ilə cinayət işi başladıb.

2022-ci ildə Bilzerian "dostunun toyunda iştirak etmək" məqsədilə Ermənistana səfər edib. Onun ölkəyə investisiya yatıracağı ilə bağlı yayılan məlumatlar isə təsdiqini tapmayıb.

Bu ilin 6 aprelində Bilzerian Florida ştatının 6-cı seçki dairəsindən Respublikaçılar Partiyasından namizədliyini irəli sürüb. Onun rəqibi Fine yəhudi əsillidir. Bilzerian isə antisemit çıxışları, o cümlədən ABŞ-nin keçmiş prezidenti Donald Trumpın İran siyasətini tənqid etməsi ilə də tanınır. Bu səbəbdən onun seçkilərdə uğur şansları aşağı qiymətləndirilir və əsas dəstəyin daha çox erməni diaspor təşkilatlarından gəldiyi bildirilir.

Erməni diasporunun hücum kampaniyasına baxmayaraq, konqresmen Randy Fine mövqeyindən geri çəkilməyib və iki gün əvvəl sosial şəbəkə hesabında yazıb: "Ermənilər Konqresdə yer tutmamalıdır - somalililərə də, qvatemalalılara da, hətta israillilərə də "yox"".

Qeyd edək ki, bir neçə ay əvvəl Randy Fine digər respublikaçı konqresmen Anna Paulina Luna ilə birlikdə Azərbaycana qarşı yönəlmiş "907-ci düzəliş"in ləğvi ilə bağlı qanun layihəsi irəli sürmüşdü. Luna MAGA hərəkatına yaxındır və Donald Trampla sıx əlaqələri ilə tanınır.

❑ "Yeni Musavat"

**İyun ayında keçiriləcək vacib parlament seçkilərindən bir ay əvvəl Ermənistan Avropa nümayəndələrinin zirvə toplantısına ev sahibliyi etdi. Moskva və Brüssel Ermənistandakı parlament seçkilərini diqqətlə izləyir. Lakin "France 24" xəbər verir ki, Rusiya ilə Avropa İttifaqı (Aİ) arasında gözlənilən qarşıdurma seçkilərin xarici maraqların təsiri altına düşəcəyindən qorxan ölkədəki demokratiya tərəfdarları arasında narahatlıq doğurur. Macarıstanda Avropapərəst Peter Madyarın baş nazir Viktor Orban üzərində qələbə qazanması ilə nəticələnən seçkilərindən sonra Aİ və Rusiyanın diqqəti indi Brüssellə Moskva arasında ideoloji və geosiyasi qarşıdurma üçün yeni bir meydan olan Ermənistana yönəlib.**



# Paşinyan üçün kritik dövr

## Ermənistanda Moskva-Brüssel qarşıdurması başlayır

"France 24" yazır ki, Ermənistanda 7 iyun parlament seçkiləri xüsusilə əhəmiyyətlidir. Çünki ölkədə uzun müddət Rusiyaya yönəlmiş ictimai rəy indi Brüsselə yönəlib. Rəsmi seçki kampaniyası səsvermədən 30 gün əvvəl başlasa da, namizədlər artıq seçicilərlə görüşlər keçirirlər.

Beynəlxalq Respublikaçılar İnstitutunun (İRİ) Avropa və Avrasiya üzrə baş direktoru Stiv Niks "France 24"ə deyib ki, erməni siyasətçilərinin Aİ ilə əməkdaşlıq etmək istəməsinin səbəblərindən biri onun "təhlükəsizlik və rifah"la əlaqələndirilməsidir.

İRİ-nin 2026-cı ilin fevral ayında keçirdiyi sorğuya görə, hazırda ermənilərin 72%-i Aİ-yə qoşulmağı dəstəkləyir.

"Aİ çox cəlbedicidir. Buna görə də ictimaiyyəti sülhə, rifaha və Aİ-yə inteqrasiyaya zəmanət verdiyinə inandıra bilən kampaniya Ermənistanda qalib gələcək", - Niks qeyd edib.

Eyni sorğuda ermənilərin təxminən üçdə biri Rusiyanı ölkələri üçün əsas siyasi təhlükə hesab edir. Yalnız 3 faizi Aİ-ni təhlükə görür. Bununla yanaşı, respondentlərin 43 faizi Moskvanı İrəvanın ən vacib siyasi tərəfdaşı hesab edir.

Rusiyapərəst "Güclü Ermənistan" Partiyası Paşinyanın partiyası hakimiyyətdə qalacağı təqdirdə Rusiya ilə "iqtisadi müharibə" təhlükəsi barədə xəbərdarlıq edərək, bununla seçicini cəlb etməyə çalışır.

"Həm Qərbin, həm də Rusiyanın açıqlamaları onların öz seçimlərini qəbuledilməz hala gətirməyə çalışdıqlarını göstərir", - deyə İODA-nın direktorlar şurasının üzvü Filip Kalfayan Fransa nəşrinə bildirib və əlavə edib ki, "onlar əslində seçkiləri Ermənistan vətəndaşlarından oğurlayır və buna böyük sərmayə qoyurlar". O hesab edir ki, Aİ-Ermənistan sammiti buna bariz nümunədir: seçkilərdən bir neçə həftə əvvəl belə bir tədbirin keçirilməsi ictimai rəy tərəfindən Aİ-nin Paşinyana dəstəyinin siqnalı kimi qəbul edilə bilər.

İnsan haqları üzrə vəkil və İODA üzvü Sara Li Uitson isə iddia edir ki, siyasətçilər həmçinin müəyyən partiyalar və siyasi xadimlərlə Rusiya arasındakı əlaqələrlə bağlı ittihamları "instrumentalizasiya" edirlər.

"Hökumət Rusiyanın təsiri və ya mümkün Rusiyanın hərəkətləri ilə bağlı qorxuları artırır. Çünki bunun Aİ və ABŞ-dən maliyyə və ya digər dəstəyin artmasına səbəb olacağını bilir".

Filip Kalfayanın sözlərinə görə, "hazırkı hökumət Rusiya ilə çox yaxşı münasibətlər saxlayır. Əlbəttə ki, Moskva ona qarşı daha az sərt birinin olmasını istəyir. Lakin nəticə etibarilə, siyasi mənsubiyyətindən asılı olmayaraq, istənilən Ermənistan hökuməti Rusiya ilə yaxşı münasibətlər saxlamağa məcburdur".

Rusiyanı qıcıqlandıran və əsəblərini tarıma çəkən məsələlərdən biri də Ermənistanla Avropa ölkələri arasında dünən imzalanan sənədlərdir. Məsələn, Paşinyan Ermənistanın Birləşmiş Krallıqla strateji tərəfdaşlıq sazişi imzaladığını açıqlayıb. Paşinyan özünün və Britaniya baş naziri Keir Starmerin sənədləri imzaladığı videonu paylaşıb. Baş nazir sosial media hesabında yazıb ki, Ermənistan və Birləşmiş Krallıq münasibətlərində ortaq dəyərlər üzərində qurulmuş və əməkdaşlığı gücləndirmiş yeni və perspektivli bir fəsil açırlar. Ermənistan hökumətinin Mətbuat Xidməti hər iki tərəfin demokratik dəyərlərə sadiqliyini, azad seçkilərin əhəmiyyətini qəbul etməsini, korrupsiyaya qarşı mübarizəni və müstəqil media və vətəndaş cəmiyyəti üçün əlverişli mühitin yaradılmasını vurğulayan sənədi dərc edib.

Strateji əməkdaşlığının bir hissəsi olaraq, rəsmi İrəvan və London Ermənistanın təhlükəsizlik, müdafiə, sərhəd təhlükəsizliyi, qanunsuz miqrasiya ilə mübarizə, kiber dayanıqlılıq və hibrid təhdidlərə cavab vermək sahələrində potensialını inkişaf etdirmək niyyətindədirlər.

Ermənistan həmçinin NATO-nun digər üzvü Xorvatiya ilə strateji dialoq haqqında birgə bəyannaməni təsdiqləyib. Paşinyan Ukrayna Prezidenti Volodimir Zelenskini İrəvana dəvət edib. Zelenskinin sözlərinə görə, tərəflər iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın işinin bərpası da daxil olmaqla, iqtisadi tərəfdaşlığın inkişafı məsələlərini müzakirə ediblər.

Sənədlərin imzalanması və görüş 2022-ci ildə Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə təsis edilmiş Avropa Siyasi Birliyi sammiti çərçivəsində baş tutub. Sammit üçün 40 ölkədən nümayəndə Ermənistan paytaxtına gəlib. Paşinyan bildirib ki, iştirakçılar "hibrid təhdidlərdən və demokratik institutların dayanıqlığından tutmuş bağlantı və enerji məsələlərinə qədər vacib mövzuları müzakirə etmək" imkanına malik olacaqlar. Makron Ermənistandakı siyasi dəyişiklikləri qeyd edib və Ermənistanın baş nazirini Avropaya inteqrasiyaya sadiqliyinə görə tərifləyib. "Düzünü desək, səkkiz il əvvəl buraya heç kim gəlməzdi. Səkkiz il əvvəl bu ölkə danışıqlar masasında faktiki olaraq Rusiyanın peyki hesab olunurdu. Bu gün ölkənizə bu qədər yeni səfərlər görməyimiz çox şeydən xəbər verir", - Makron deyib.

"The Moscow Times" yazır ki, İrəvanın Qərb ölkələri ilə hazırkı yaxınlaşması Moskva ilə gərginliyin artması fonunda baş verir və bu, Paşinyanın Kremldə Vladimir Putinlə görüşündən sonra daha da güclənib. Aprelin əvvəlində Ermənistanın baş naziri Kremldə ölkəsinin siyasi sisteminin demokratik xarakterini vurğulayıb. "Bilirsiniz, Ermənistan demokratik ölkədir. Bizdə demək olar ki, həmişə siyasi proseslər olur və bu, bizim üçün normal bir şeyə çevrilib. Məsələn, sosial mediamız 100% pulsuzdur. Heç bir məhdudiyyət yoxdur", - deyə Paşinyan bildirib.

Eyni zamanda Paşinyan Avropa İttifaqı ilə yaxınlaşma öhdəliyini bir daha təsdiqləyib və İrəvanın hərbi blok olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzvlüyünü dondurduğunu xatırladıb.

Danışıqlardan üç həftə sonra Rusiya Təhlükəsizlik Şurası katibinin müavini Aleksey Şevtsov xəbərdarlıq edib ki, Ermənistan eyni zamanda həm Avrasiya İqtisadi Birliyinin, həm də Avropa İttifaqının üzvü ola bilməz. Yəni Ermənistan Avropaya doğru irəliləməyə davam edərsə, Avrasiya İqtisadi Birliyindən çıxmalı olacaq. Onun sözlərinə görə, bu, ölkə üçün iqtisadi itkilərə səbəb ola bilər.

Bütün baş verənlər onu göstərir ki, Ermənistan üçün hazırda kritik vəziyyət hökm sürür və hadisələrin inkişafından, xüsusilə də qarşıdan gələn seçkilərin nəticələrindən çox şey asılıdır.

❑ "Yeni Müsavat"

Yeni MÜSAVAT
N 17 (8866) 6 may 2026

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# Ümumdünya Kilsələr Şurasının gözündəki "tor"

## Siyasi şərhçiyə görə, Qərbin dini platformalarında da Azərbaycana qarşı qərəz və ikili standartlar var

**Ümumdünya Kilsələr Şurası ilə bağlı son bəyanat ətrafında yaranan müzakirələr regionda dini və siyasi münasibətlərin həssas balansını bir daha gündəmə gətirib. Yayılan sənəddə Azərbaycan-Ermənistan kontekstində səsləndirilən fikirlər rəsmi Bakıda ciddi narazılıqla qarşılanıb və bu mövzu qısa müddətdə geniş polemikaya səbəb olub.**

Məhz bu fonda Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə məsələ ilə bağlı mövqeyini ortaya qoyaraq, ÜKŞ rəhbərliyinə rəsmi etiraz məktubu ünvanlayıb. Məktubda qeyd olunur ki, sözügedən bəyanatda regionda baş vermiş son hadisələr təhrif olunmuş şəkildə təqdim edilib və bu yanaşma reallığı əks etdirmir.

Yaranmış vəziyyət bir daha göstərir ki, beynəlxalq dini qurumların regionla bağlı mövqeləri yalnız dini deyil, eyni zamanda siyasi müstəvidə də ciddi təsir gücünə malikdir və bu cür açıqlamalar tərəflər arasında onsuz da həssas olan münasibətləri daha da gərginləşdirə bilər.

**Siyasi analitik Azər Hüseynov** mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, Ümumdünya Kilsələr Şurasının son bəyanatı və onun ətrafında yaranmış müzakirələr bir daha göstərir ki, beynəlxalq dini və siyasi platformalarda regiona, xüsusilə də Cənubi Qafqazda baş verən proseslərə yanaşma həmişə eyni dərəcədə obyektiv və balanslı olmur: "Müxtəlif təşkilatlar öz bəyanatlarında tez-tez hadisələri fərqli interpretasiya edir və bu zaman bəzən real geosiyasi vəziyyətin mürəkkəbliyi kifayət qədər nəzərə alınmır.

Qafqaz Müsəlmanları İdarəsinin bu məsələ ilə bağlı Ümumdünya Kilsələr Şurasının rəhbərliyinə ünvanladığı məktub da məhz bu narahatlığın ifadəsi kimi qiymətləndirilə bilər. Məktubda diqqətə çatdırılır ki, bəzi bəyanatlarda regionda baş vermiş son hadisələr, o cümlədən Azərbaycan-Ermənistan münasibətləri kontekstində formalaşmış reallıqlar ya təhrif edilir, ya da birtərəfli şəkildə təqdim olunur. Bu isə təbii olaraq ictimai rəyə və beynəlxalq təsəvvürə təsir göstərir".

**Siyasi şərhçinin sözlərinə görə, Azərbaycan uzun illərdir ki, öz xarici siyasətində çoxşaxəli və balanslı yanaşma nümayiş etdirir:** "Avropa dövlətləri ilə ikitərəfli münasibətlərdə əməkdaşlığın genişləndirilməsi istiqamətində ciddi addımlar atılır, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri və iqtisadi layihələr çərçivəsində əməkdaşlıq inkişaf etdirilir. Avropa ölkələrinin bir çox siyasi rəhbərləri də ayrı-ayrılıqda Azərbaycanla münasibətlərin dərinləşdirilməsində maraqlı olduqlarını açıq şəkildə bəyan edirlər.



Lakin burada paradoksal bir vəziyyət də müşahidə olunur: dövlətlər səviyyəsində praqmatik və qarşılıqlı maraqlara əsaslanan münasibətlər inkişaf etdirildiyi halda, bəzi beynəlxalq parlament qurumları, qeyri-hökumət təşkilatları və dini strukturların bəyanatlarında daha fərqli, bəzən isə qərəzli yanaşmalar ortaya çıxır. Xüsusilə Avropa Parlamentinin ayrı-ayrı platformalarında və bəzi dini təşkilatların bəyanatlarında Azərbaycanla bağlı mövqelərin emosional və birtərəfli xarakter daşıdığı hallara rast gəlinir.

Bu cür yanaşmaların kökündə müxtəlif amillər dayanır. Onlardan biri informasiya mənbələrinin qeyri-bərabərliyi və hadisələrin yalnız bir tərəfdən təqdim olunmasıdır. Digəri isə beynəlxalq siyasətdə hələ də müəyyən ideoloji və tarixi stereotiplərin qalmasıdır. Bəzi qurumlar regiona qiymət verərkən obyektiv geosiyasi reallıqdan daha çox əvvəlcədən formalaşmış təsəvvürlərə əsaslanır.

Azərbaycan isə öz mövqeyində həmişə beynəlxalq hüququn norma və prinsiplərinə söykənərək ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasını əsas prioritet kimi müəyyən etməyə çalışıb. Bu istiqamətdə aparılan siyasət həm regional sabitliyin, həm də uzunmüddətli sülhün təmin edilməsinə yönəlib. Eyni zamanda 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövr göstərdi ki, Azərbaycanın mövqeyi yalnız müsəlman ölkələri tərəfindən açıq şəkildə dəstəklənib. Bu dəstək həm siyasi, həm mənəvi, həm də diplomatik müstəvidə özünü göstərdi. Bu fakt regionda yeni geosiyasi reallığın formalaşdığını da ortaya qoydu".

**Azər Hüseynov onu da qeyd edir ki, Qərb institutlarının və bəzi dini strukturların yanaşmaları ilə bağlı müşahidə olunan fərqliliklər, Azərbaycanın xarici siyasətində daha ehtiyatlı və praqmatik yanaşmanın vacibliyini də gündəmə gətirir:** "Çünki beynəlxalq münasibətlərdə yalnız deklarativ bəyanatlar deyil, real maraqlar və qarşılıqlı öhdəliklər daha həlledici rol oynayır. Bu baxımdan Azərbaycan üçün əsas istiqamət emosional yanaşmalardan uzaq, milli maraqlara əsaslanan, balanslı və çoxşaxəli xarici siyasətin davam etdirilməsidir. Eyni zamanda müsəlman dünyası ilə inteqrasiyanın gücləndirilməsi, iqtisadi və siyasi əməkdaşlığın dərinləşdirilməsi də strateji əhəmiyyət daşıyır.

Ümumdünya Kilsələr Şurasının bəyanatı ətrafında yaranan müzakirələr bir daha göstərir ki, beynəlxalq təşkilatların mövqeləri hər zaman tam neytral və ya obyektiv olmur. Bu isə dövlətləri daha çevik, daha realist və milli maraqlara əsaslanan xarici siyasət yürütməyə məcbur edir. Yekunda bir daha vurğulamaq istərdim ki, xarici siyasətdə türk və müsəlman dünyası ilə inteqrasiya ilk planda olmalıdır. Bunun üçün milli dəyərlər ön planda olmalıdır. Bu gün bizi müsəlman dünyasının Qərbdən geri qalması aldatmasın. Yaxın Şərqdə gedən proseslər onu deməyə əsas verir ki, artıq mövcud düzən xeyli zədə alıb".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ**

# Ümrəyə getmək istəyənlər bunları bilməli...

## Ziyarət ilin hansı vaxtlarında edilə bilər?

**Ümrəyə getməyi planlaşdıranlar üçün hazırlıq mərhələsində bir çox sual ortaya çıxır. Çünki Ümrə yalnız bilet alıb yola çıxmaq deyil; həm sənəd, həm vaxt planlaması, həm də ibadət ardıcıllığı baxımından diqqət tələb edən bir ziyarətdir. "Qaynarinfo"nun bu mövzuda hazırladığı yazını ixtisarla təqdim edirik.**

Ümrəyə getmək üçün ilk növbədə müddəti bitməmiş xarici pasport lazımdır. Pasportun etibarlılıq müddəti səfər tarixindən sonra kifayət qədər uzun olmalıdır. Bir çox hallarda pasportun xarici ölkəyə giriş tarixindən etibarən ən azı 6 ay etibarlı olması tələb olunur. Buna görə də səfəri planlamadan əvvəl pasportun vaxtını yoxlamaq vacibdir.

Bundan əlavə, viza təsdiqi, uçuş bileti, hotel rezervasiyası, səyahət sığortası və ümrə paketi ilə bağlı sənədlər lazım ola bilər. Əgər səfər tur şirkəti və ya agentlik vasitəsilə təşkil olunursa, həmin şirkət əlavə sənədlər də istəyə bilər. Səfərə çıxmazdan əvvəl pasport, viza, bilet, yaşayış məlumatları və icazələrin hazır olduğuna əmin olmaq lazımdır.

Ümrə vizası rəsmi elektron platformalar, təsdiqlənmiş tur şirkətləri və ya səlahiyyətli agentliklər vasitəsilə alına bilər. Müraciət zamanı pasport məlumatları, şəxsi məlumatlar, fotoşəkil və digər tələb olunan məlumatlar düzgün daxil edilməlidir. Viza müraciətində səhv məlumat yazılması səfər zamanı problem yarada bilər.

Ümrə vizası ilə Səudiyyə Ərəbistanında 90 günə qədər qalmaq olur. Bu müddət vizanın növündən və mövcud qaydalardan asılı olaraq dəyişə bilər. Buna görə də səfər tarixlərini seçərkən vizanın qüvvədə olma müddətinə diqqət etmək lazımdır.

Qalma müddətini aşmaq ciddi problem yarada bilər. Bu səbəbdən, giriş və çıxış tarixləri əvvəlcədən düzgün planlaşdırılmalıdır. Səfərin son günlərini riskə atmamaq, uçuş tarixlərini viza müddətinə uyğun seçmək daha təhlükəsiz yanaşmadır.

Ümrə Həcc kimi yalnız müəyyən günlərə bağlı ibadət deyil. İlin böyük hissəsində ümrə



ziyarətini yerinə yetirmək mümkündür. Lakin Həcc mövsümü və bəzi xüsusi tarixlərdə Məkkəyə giriş, viza və icazə qaydalarında məhdudiyyətlər ola bilər.

Ümrənin əsas mərhələləri ehrama girmək, təvaf etmək, Səfa və Mərvə arasında say etmək və sonda saçı tamamilə qırxdırmaq və ya qısaltmaqdır. Bu ardıcıllıq ümrə ibadətinin əsas hissəsini təşkil edir. Hər mərhələnin öz mənası və yerinə yetirilmə qaydası var.

İlk dəfə ümrəyə gedənlər bu ardıcıllığı əvvəlcədən öyrənməlidirlər. Hansı mərhələnin harada və nə zaman yerinə yetirildiyini bilmək ziyarət zamanı çaşqınlığı azaldır. Əgər dini hökmlərlə bağlı xüsusi suallar yaranarsa, etibarlı dini mənbəyə və ya bilikli şəxsə müraciət etmək daha doğru olar.

Ehram ümrə ibadətinə niyyətlə daxil olmaq halıdır. Yəni ehram yalnız xüsusi geyimdən ibarət deyil. İnsan ümrəyə niyyət edir və bu niyyətlə müəyyən qadağalara riayət etməyə başlayır. Ehrama adətən miqat adlanan müəyyən sərhədlərdən keçməzdən əvvəl girilir.

Kişilər ehram üçün iki parça tikişsiz örtük geyinirlər. Qadınlar isə bədənlərini örtən, sadə və uyğun geyimlə ehrama girə bilərlər. Ehrama girməzdən əvvəl təmizlənmək, qüsl almaq və ya dəstəmazlı olmaq tövsiyə olunur. Ehram halında insan davranışına, sözlərinə və ibadətə diqqət etməlidir.

Təvaf Kəbənin ətrafında yeddi dəfə dövrə vurmaqla yerinə yetirilir. Ümrə zamanı təvaf əsas mərhələlərdən biridir. Təvaf edərkən insan ibadətə diqqət etməli, tələsməməli və ətrafdakı insanlara narahatlıq yaratmamalıdır.

Say, Səfa və Mərvə təpələri arasında yeddi gedişdən ibarətdir. Say Səfadan başlayır və Mərvədə tamamlanır. Səfadan Mərvəyə getmək bir gediş, Mərvədən Səfaya qayıtmaq isə ikinci gediş sayılır. Bu şəkildə yeddi gediş tamamlanır.

Say zamanı kişilər müəyyən işarələnmiş hissədə daha sürətli yeriyə bilərlər. Qadınlar və fiziki məhdudiyyəti olan şəxslər isə öz hallarına uyğun şəkildə hərəkət etməlidirlər. Burada əsas məsələ ibadəti düzgün ardıcıllıqla yerinə yetirmək və sağlamlığı riskə atmamaqdır.

Ümrə, təvaf və say tamamlandıqdan sonra saçın qırxılması və ya qısaldılması ilə tamamlanmış sayılır. Kişilər saçlarını tam qırxdıra və ya qısalda bilərlər. Qadınlar isə saçlarının ucundan az miqdarda kəsirlər.

Bu mərhələ tamamlandıqdan sonra insan ehramdan çıxmış sayılır və ehram qadağaları sona çatır. Ona görə, saç qısaltma və ya qırxdırma mərhələsini unutmaq olmaz.

**Nuri Killigil, digər adı ilə Nuri Paşa - Ənvər Paşanın qardaşı, Türkiyənin ilk yerli silah fabrikinin qurucusu və Bakının xilaskarı kimi tanınan sərkərdə 2 mart 1949-cu ildə baş verən şübhəli ölümünə qədər həyatını qəhrəmanlıq salnaməsinə çevirib.**

# Bakının xilaskarı Nuri Paşanın sirli ölümü



Sherg.az xəbər verir ki, ingilisləri məğlub edən Nuri Paşa bu gün İsrail dövləti ilə bağlı iddialar fonunda yarımçıq qalmış böyük qəhrəmanlığı ilə xatırlanır. Fələstin, Qafqaz və Türkiyə torpaqlarında iz qoymuş bu şəxsiyyətin müəmmalı ölümü hələ də suallar doğurur.

I Dünya müharibəsi dövründə ingilislər müxtəlif bölgələrdən seçilmiş elit hərbçilərdən ibarət "Dunsterforce" adlı xüsusi birlik yaratmışdı. Bu qüvvəyə general Lionel Dunsterville rəhbərlik edirdi. Məqsəd Qafqazdakı strateji neft ehtiyatlarını və nəqliyyat xətlərini qorumaq idi.

1917-ci ildə Rusiyada baş verən inqilabdan sonra bölgədə yaranan boşluq ingilisləri narahat etmişdi. Onlar həm bolşeviklərə, həm də Osmanlı qüvvələrinə qarşı mövqe tutmaq istəyirdi. Lakin qarşılarında gözlədiklərindən daha güclü bir qüvvə var idi.

## Qəza, yoxsa sui-qəsd?

Nuri Paşa Qafqaz İslam Ordusu ilə Azərbaycanda rus və erməni silahlı dəstələrinə qarşı əməliyyatlara başladı. Bu ordu Osmanlı, azərbaycanlı və Dağıstanlı döyüşçülərdən ibarət idi. Qısa müddətdə geniş dəstək qazanan bu qüvvə ingilislərin planlarını alt-üst etdi.

1918-ci ildə Bakının azad olunması ilə nəticələnən əməliyyatlar Nuri Paşanı bölgədə əfsanəvi fiqura çevirdi. O, Azərbaycanda böyük hörmət və sevgi ilə qarşılanırdı. Bakıda Təzəpir məscidində xalqa müraciət etmiş, həmin minbər bu gün də onun adı ilə tanınır.

Lakin Mondros müqaviləsindən sonra Qafqaz İslam Ordusu geri çəkilməyə məcbur oldu və Nuri Paşa ingilislər tərəfindən həbs edildi. Daha sonra isə yerli əhalinin köməyi ilə qaçırıldı.

Müharibədən sonra bir müddət Almaniyada yaşayan Nuri Killigil 1938-ci ildə Türkiyəyə qayıtdı. İstanbulun Zeytinburnu rayonunda aldığı müəssisəni silah istehsal edən fabrikə çevirdi. Burada tapança, sursat, qaz maskası və digər hərbi avadanlıqlar istehsal olunurdu.

1946-cı ildə fabriki genişləndirərək Sütlücəyə köçürdü və minaatan silahları ilə mərmilərinin istehsalına başladı. Bu istehsal həm Türkiyə, həm də Fələstin üçün strateji əhəmiyyət daşıyırdı.

2 mart 1949-cu ildə Sütlücədəki fabrikdə ard-arda 3 güclü partlayış baş verdi. Bu hadisə nəticəsində Nuri Paşa həyatını itirdi. Onun cəsədi tapılmadı, yalnız parçalanmış qalıqlar aşkar edildi və simvolik şəkildə dəfn olundu.

Rəsmi versiyaya görə, bu hadisə qəza idi. Lakin bir çoxları bunu yeni qurulan İsrail dövlətinin kəşfiyyatı tərəfindən həyata keçirilmiş sui-qəsd kimi qiymətləndirir.

### İsrailin tanınması ilə bağlı iddialar

Partlayışdan qısa müddət sonra Türkiyə hökuməti İsrail dövlətini rəsmi olaraq tanıdı. Bu qərar həmin dövrdə mübahisələrə səbəb oldu və bəzi iddialara görə, hadisələr arasında əlaqə ola biləcəyi irəli sürüldü.

### Məzarı boş qalan qəhrəman

Nuri Killigilin cənazəsi Edirnekapı Şəhidliyində dəfn olunsa da, onun məzarı simvolik hesab olunur. Çünki nəşi tam şəkildə tapılmayıb.

O, həm hərbi, həm də sənaye sahəsində Türkiyənin inkişafına töhfə verən ilk şəxslərdən biri kimi tarixə düşüb. Bu baxımdan onu ilk təyyarə fabrikinin qurucusu Nuri Demirdağla da müqayisə edirlər.

Nuri Paşanın həyatı qəhrəmanlıq, mübarizə və müəmmalı sonluqla yadda qalıb. Onun ölümü ilə bağlı suallar isə bu günə qədər tam cavab tapmayıb.

# Mətbuat Şurası səfirin müsahibəsinə görə açıqlama yaydı

"Müsahibədə Vilayət Quliyevin övladı - mərhum Humay Quliyeva ilə bağlı sual-cavab hissəsi..."

**"Media orqanları və jurnalistlər müsahibə götürdükləri şəxslərin fikirlərini hissələrə bölərək, müxtəlif sərlövhələrlə təqdim edirlər. Əlbəttə, bu onların müstəsna hüququdur və heç şübhəsiz, geniş izləyici və oxucu auditoriyası toplamağa hesablanıb. Lakin bir çox hallarda bu üsula üstünlük verilməsi müsahiblərdə ciddi narazılıq doğurur. Narazılıq xüsusən həmin hissələrin sosial şəbəkələrdə paylaşılması zamanı meydana çıxır". Mətbuat Şurasının yaydığı məlumatda belə deyilir.**




Qeyd olunub ki, sosial şəbəkə istifadəçiləri münasibətlərini, bir qayda olaraq, müsahiblərin yanaşmalarına, onların haqqında söz açdıqları məsələ ilə bağlı söylədikləri digər fikirlərə diqqət yetirmədən, yaxud yalnız irəliyə çıxarılmış sərlövhəyə köklənərək bildirirlər: "Təcrübə göstərir ki, adətən belə durumlarda əsl mahiyyət kənarda qalır. Mövcud müstəvidəki ən yolverilməz hal isə müsahiblərin sosial şəbəkə istifadəçiləri tərəfindən əsassız ittihamlarla üzləşmələridir. Belə ki, 29 aprel 2026-cı il tarixində Azərbaycan Respublikasının Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevdən "Qaranlıqda həqiqət" verilişi tərəfindən müsahibə alınıb. Müsahibədə V.Quliyevin bir alim və diplomat kimi səsləndirdiyi fikirlər önə çıxarılmaq əvəzinə, onun məhz övladı - mərhum Humay Quliyeva ilə bağlı sual-cavab hissəsi qısa videolar şəklində sözügedən verilişin anonslarında təqdim edilib və digər media qurumları da məhz bu parçanı auditoriya ilə paylaşıblar.

Yaranmış vəziyyətə görə Humay Quliyevanın adına yaradılmış "Huma Quşu" Təhsilə Yardım Fondu bəyanat yayaraq, kəskin etirazını bildirib və Azərbaycan Mətbuat Şurasına mövqe bildirmək üçün müraciət edib. Şura fondun müraciətindəki narahatlığı bölüşür və hesab edir ki, "Qaranlıqda həqiqət" verilişinin təqdimatında qeyri-həssas yanaşmaya yol verilib. Mahiyyətini diplomatiya, xarici siyasət və tariximizə dair sanballı söhbət təşkil edən müsahibənin anonsları ənənəvi "reytinq yaradıcılığının" mənfi təsirinə məruz qalıb, mətnin ümumi ruhuna xələl gəlib, bütün bunlar mərhumun valideynlərində dərin sarsıntı yaradıb.

Qeyd olunan və digər oxşar vəziyyətləri nəzərə alaraq, Azərbaycan Mətbuat Şurası media orqanlarını bu tipli davranışlarını qınayır və onları müsahiblərin təqdimatına ehtiyatla yanaşmağa çağırır. Şura bu qənaətdədir ki, bütöv mətnlərin kontekstdən çıxarılmış fikir şəklində yayılması zamanı müsahibə verən şəxslərin barəsində söz açdıqları konkret mövzu arxa plana keçməməli, spekulyativ yanaşmalardan uzaq durulmalıdır. Çünki bütün bunlar media orqanlarına və jurnalistlərə etimadsızlıq və inamsızlıq formalaşdırır. Etimadsızlıq və inamsızlıq mühiti isə medianın nüfuzunu aşağı salır, həmçinin cəmiyyətin dolğun bilgilərlə təminatı prosesinə mənfi təsir göstərir.

Media və jurnalistlər onu da nəzərə almalıdırlar ki, müsahibə və ya janrından asılı olmayaraq, təqdim etdikləri bütün materiallar cəmiyyət üzvləri arasında kütləvi qıcıq yaratmamalı, insanların faydalı biliklər əldə etməsini, onların dünyagörüşlərinin yüksəlməsini təmin etməlidir. Əsl ictimai missiya məhz budur. Mətbuat Şurası bütövlükdə media cameəsini özünün ictimai missiyasına məsuliyyətlə və son dərəcə həssas yanaşmağa çağırır".

# Azərbaycanda ana ölümləri - regionlar üzrə statistika



**2025-ci ildə Azərbaycanda ana ölümü üzrə 26 hal qeydə alınıb və bu göstərici hər 100 min diri doğulana 27,1 təşkil edib.**

Bu barədə Modern.az-ın sorğusuna cavab olaraq Dövlət Statistika Komitəsindən məlumat verilib.

Məlumata görə, 2025-ci il üzrə regionlar üzrə bölgü göstərir ki, qeydə alınan 26 halın 10-u şəhər yerlərində, 16-sı isə kənd yerlərində baş verib. Belə ki, Bakı şəhərində ümumilikdə 4 hal qeydə alınıb və bunlardan 2-si Sabunçu rayonunda, hərəsi 1 olmaqla isə Suraxanı və Yasamal rayonlarında baş verib. Bakı şəhərinin digər rayonlarında isə belə hal qeydə alınmayıb.

Naxçıvan iqtisadi rayonunda ümumilikdə 4 ana ölümü qeydə alınıb. Bu halların 1-i Naxçıvan şəhərində, 1-i Babək rayonunda, 2-si isə Kəngərli rayonunda baş verib. Abşeron-Xızı iqtisadi rayonunda 1 belə hal qeydə alınıb və bu hal Sumqayıt şəhərində baş verib. Gəncə-Daşkəsən iqtisadi rayonunda da 1 ana ölümü qeydə alınıb və bu hal Gəncə şəhərinin payına düşür.

Qarabağ iqtisadi rayonunda ümumilikdə 4 ana ölümü qeydə alınıb. Bu halların 1-i Ağcabədi rayonunda, 3-ü isə Bərdə rayonunda baş verib. Qazax-Tovuz iqtisadi rayonunda 1 hal qeydə alınıb və bu hadisə Qazax rayonunda qeydə alınıb. Quba-Xaçmaz iqtisadi rayonunda isə Quba və Qusar rayonlarından hər birində 1 nəfər olmaqla ümumilikdə 2 hal qeydə alınıb.

Lənkəran-Astara iqtisadi rayonunda ümumilikdə 4 ana ölümü halı qeydə alınıb. Bu halların 2-si Cəlilabad rayonunda, 1-i Lənkəran rayonunda, 1-i isə Yardımlı rayonunda baş verib. Mərkəzi Aran iqtisadi rayonunda 1 hal qeydə alınıb və bu hadisə Kürdəmir rayonunda qeydə alınıb. Mil-Muğan iqtisadi rayonunda 2 ana ölümü qeydə alınıb və hər iki hal İmişli rayonunun payına düşür. Şəki-Zaqatala iqtisadi rayonunda 1 hal qeydə alınıb və bu hadisə Şəki rayonunda baş verib. Şirvan-Salyan iqtisadi rayonunda da 1 ana ölümü qeydə alınıb və bu hal Hacıqabul rayonunda qeydə alınıb.

# 23 kişi evdə zorakılığa görə şikayət edib

**2026-cı ilin ilk rübü (yanvar-mart ayları) ərzində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə (AQUPDK) məişət zorakılığı ilə bağlı ümumilikdə 134 müraciət daxil olub.**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi-təminat şöbəsinin Məişət zorakılığının qarşısının alınması sektorunun məsləhətçisi İradə Məmmədova deyib ki, daxil olan müraciətlərdən 23-ü kişilər, 106-sı qadınlar, 5-i isə uşaqlar tərəfindən edilib. Kişilər tərəfindən daxil olan müraciətlərin əsas hissəsi psixi zorakılıq, bəzi hallarda isə iqtisadi zorakılıqla bağlı olub. Fiziki zorakılığa məruz qalan kişilərlə bağlı isə komitəyə hər hansı müraciət daxil olmayıb. Eyni zamanda kişilərin müraciətlərinin əksəriyyəti övladları ilə ünsiyyət, uşaqların keçmiş həyat yoldaşları tərəfindən zorakılığa məruz qalması kimi məsələlərlə bağlı olub.

YENİ MÜSAVAT
N 17 (8866) 6 may 2026

# Kirayədə yaşayanlara dövlət ev verəcək?

## Mövcud reallıq göstərir ki, mənzil sahibi olmaq yalnız orta və yüksək gəlirli təbəqə üçün əlçatandır, amma...

**Azərbaycanda kirayə mənzil bazarı son illərdə sosial-iqtisadi müzakirələrin əsas mövzularından birinə çevrilib. Xüsusilə paytaxt Bakı və iri şəhərlərdə mənzil qiymətlərinin kəskin bahalaşması əhalinin gəlirləri ilə daşınmaz əmlak bazarı arasındakı uçurumu daha da dərinləşdirib. Nəticədə minlərlə ailə üçün yeganə çıxış yolu kirayə mənzillər olur. Lakin bu seqmentdə də qiymətlərin davamlı artımı vəziyyəti çıxılmaz həddə yaxınlaşdırır. Mövcud reallıq göstərir ki, mənzil sahibi olmaq artıq yalnız orta və yüksək gəlirli təbəqə üçün əlçatan olaraq qalır. Aztəminatlı və hətta orta gəlirli ailələr üçün isə bu, uzunmüddətli maliyyə öhdəlikləri və ciddi risklər deməkdir. Bu fonda dövlətin tətbiq etdiyi “satmaq öhdəliyi ilə kirayə” mexanizmi müəyyən qədər çıxış yolu kimi təqdim edilsə də, praktiki baxımdan hər kəs üçün əlçatan deyil. Çünki bu sistem ilkin ödəniş, rəsmi gəlir və yaş məhdudiyyəti kimi şərtlərlə məhdudlaşdırılır. Nəticədə geniş sosial qruplar bu imkanlardan kənarda qalır.**



2019-cu ildən etibarən İpoteka və Kredit Zəmanət Fondu vasitəsilə həyata keçirilən bu model çərçivəsində 9 mindən çox ailənin mənzil şəraitinin yaxşılaşdırılması müsbət göstərici sayılsa da, ölkədə kirayədə yaşayanların ümumi sayı ilə müqayisədə bu rəqəm kifayət qədər aşağıdır. Digər tərəfdən, bazarda formalaşan kirayə qiymətləri də ciddi sosial yük yaradır. 2026-cı il üçün birotaqlı mənzillərin 250-550 manat, üçotaqlı mənzillərin isə 600-1200 manat aralığında dəyişməsi xüsusilə aşağı gəlirli ailələr üçün davamlı maliyyə təzyiqinə çevrilib.

Məhz bu məqamda beynəlxalq təcrübə diqqət çəkir. Türkiyədə son illərdə həyata keçirilən genişmiqyaslı sosial mənzil proqramlarından sonra yeni mərhələdə sosial kirayə modeli üzərində iş aparılır. Bu modelin əsas fəlsəfəsi ondan ibarətdir ki, vətəndaş mütləq mənzil sahibi olmaq məcburiyyətində qalmadan, dövlətin dəstəyi ilə uzunmüddətli və münasib qiymətə kirayə mənzildə yaşaya bilsin. Bu yanaşma xüsusilə urbanizasiya səviyyəsi yüksək olan ölkələrdə effektiv alət kimi qəbul olunur.

Azərbaycanda isə belə bir mexanizmin olmaması kirayə bazarını tam şəkildə özəl sektorun ixtiyarına buraxır. Bu da qiymətlərin tənzimlənməsində dövlət təsirinin zəif olması ilə nəticələnir. Əgər sosial kirayə modeli tətbiq olunarsa, bir neçə mühüm nəticə əldə etmək mümkündür.

İlk növbədə, bazarda qiymətlərin stabilləşməsi baş verə bilər. Dövlətin ucuz kirayə mənzillər təqdim etməsi özəl sektorda da qiymətlərin süni şəkildə artırılmasının qarşısını alar. İkinci mühüm məqam sosial ədalətin təmin olunmasıdır. Aztəminatlı ailələr, gənclər və yeni ailə quranlar üçün mənzil məsələsi daha əlçatan hala gələr. Üçüncü tərəfdən, dövlət büdcəsinə daxil olan vəsaitlər daha sistemli şəkildə dövriyyəyə daxil olar, vətəndaşların ödədiyi kirayə haqları qeyri-rəsmi bazardan çıxaraq rəsmi iqtisadiyyata yönələr.

Bu modelin tətbiqi üçün müxtəlif mexanizmlər mümkündür. Dövlət müvəqqəti fərdi mənzilləri satın alaraq sosial kirayə fonduna daxil edə bilər. Eyni zamanda yeni yaşayış komplekslərinin tikintisi ilə uzunmüddətli kirayə fondunun formalaşdırılması mümkündür. Bu yanaşma həm tikinti sektorunun inkişafına təkan verər, həm də məşğulluq səviyyəsinə müsbət təsir göstərər. Artan urbanizasiya, əhalinin miqrasiyası və sosial bərabərliyin qorunması baxımından bu məsələnin aktuallığı daha da yüksəlir. Əks halda, kirayə bazarında qiymətlərin nəzarətsiz artımı gələcəkdə daha ciddi sosial-iqtisadi problemlərə yol aça bilər.

**Əmlak məsələləri üzrə ekspert Elnur Azadov** “Yeni Musavat”a açıqlamasında bildirib ki, Azərbaycanda bu istiqamətdə həyata keçirilən üç əsas layihə mövcuddur: “Birincisi, dövlət tərəfindən tikilən və güzəştli şərtlərlə vətəndaşlara təqdim olunan mənzillərdir. Bu layihələrdə hökumət mənfəət güdmür, əsas məqsəd sosial təminatı gücləndirməkdir.

İkinci istiqamət ipoteka kreditləri ilə bağlıdır və bu proses İpoteka və Kredit Zəmanət Fondu tərəfindən həyata keçirilir. Uzunmüddətli kirayə öhdəliyi ilə təqdim olunan mənzillərdir. Bu mexanizm uzun müddətdir tətbiq olunur və sosial layihə xarakteri daşıyır. Bundan əlavə, adi ipoteka kreditləri də mövcuddur.

Eyni zamanda qanunvericilikdə sosial kirayə mənzillər anlayışı da nəzərdə tutulur. Mənzil Məcəlləsi çərçivəsində dövlət hesabına vətəndaşlara müvəqqəti və ya uzunmüddətli kirayə mənzillərin verilməsi mümkündür. Lakin əsas problem ondan ibarətdir ki, Azərbaycanda dövlətə məxsus geniş mənzil fondu demək olar ki, yoxdur. Türkiyədə bu funksiyanı əsasən bələdiyyələr yerinə yetirir. Azərbaycanda da bələdiyyələrin bu istiqamətdə daha aktiv olması mümkündür. Bələdiyyələr sosial yönümlü qurumlar hesab olunur. Lakin hazırda bu institut kifayət qədər inkişaf etməyib. Halbuki, onların şəhər mərkəzlərində olmasa da, kənar ərazilərdə torpaq ehtiyatları mövcuddur. Böyük şəhərlərin ətrafındakı həmin torpaqlar sosial layihələr üçün istifadə oluna bilər. Bunun üçün ilk növbədə bələdiyyələrin sərhədləri dəqiq müəyyənləşdirilməlidir. Çünki hazırda torpaq mülkiyyəti ilə bağlı qeyri-müəyyənliklər mövcuddur. O torpaqlar bələdiyyələrin mülkiyyətinə keçməlidir. Dövlət artıq bu istiqamətdə müəyyən planlama işləri aparır. Amma ləngiyir. Çünki ərazi bölgüləri zamanında düzgün aparılmayıb. Əsas problemlərdən biri də elektron xəritələrin olmaması və sərhədlərin üst-üstə düşməsidir. Bu məsələlər həll olunduqdan sonra bələdiyyə torpaqları daha effektiv istifadə edilə bilər. Bələdiyyələr bu çıxarış üzərindən torpaqların bir hissəsini investorlara təqdim edə bilər. Nəticədə investorlar həmin ərazilərdə sosialyönümlü yaşayış binaları tikə bilərlər".

**Ekspert bildirir ki, bu yanaşma bələdiyyələrin maliyyə imkanlarından birbaşa asılıdır. Bələdiyyə əgər vəsaiti toplaya bilmirsə, onun istifadəsində olan bələdiyyə torpağının həcmi çoxdursa, onu tikinti şirkətinə barter edə bilər:** “Və ya bələdiyyə həmin torpağı vətəndaşa sata və öz büdcəsini formalaşdıra bilər. Bununla da tender elan edib tikinti şirkətinə sosial kirayə evləri sifariş edə bilər. Yəni əsas məsələ bələdiyyələrin maliyyə və idarəetmə imkanlarının gücləndirilməsidir. Büdcə olmasa, heç nə etmək olmur. Torpaqlar birbaşa bələdiyyənin mülkiyyətinə keçməlidir. Təbii ki, bu prosesdə dövlət dəstəyinə ehtiyac var. Parlament səviyyəsində qərarlar qəbul edilərsə, bələdiyyələr bu sahədə daha aktiv rol oynaya bilər. Hazırda isə bələdiyyələr əsasən gündəlik problemlərin həlli ilə məşğuldur. Bəzi hallarda sosial layihələrlə bağlı qanunvericilik imkanlarından belə xəbərsiz qalırlar.

Ümumilikdə, bələdiyyələrin vəziyyəti fərqlidir. Bəzi bələdiyyələr torpaq ehtiyatlarını artıq satıb və imkanları məhduddur. Digərlərində isə torpaq məsələləri illərdir həll olunmamış qalır. Bundan əlavə, bələdiyyələr arasında sərhəd mübahisələri də mövcuddur. Bu məsələlərin həlli Nazirlər Kabineti tərəfindən tənzimlənə bilər".

**❑ Şahanə RƏHİMLİ, “Yeni Müsavat”**

# Avtomobil bazarında yenə durğunluq

## Ekspert bildirib ki, qısa müddətdə hansısa modelin qiyməti bahalaşa və yaxud da ucuzlaşa bilir

**Hazırda Azərbaycanın avtomobil bazarındakı qiymətlərdə kəskin fərq müşahidə edilmir. Bunu İqtisadiyyat.az-a açıqlamasında nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov deyib. Onun sözlərinə görə, ümumiyyətlə, avtomobil bazarı spesifikdir və özünü tənzimləməyi bacarır: “Ölkəmizə avtomobillər müxtəlif ölkələrdən idxal olunur, müxtəlif marşrutlarla gətirilir. Yəni bizdə alternativlər həddindən artıq çoxdur və hazırda ölkəmizdə avtomobil qıtlığı, demək olar ki, müşahidə edilmir. Ona görə də avtomobillərin qiymətinin kəskin yüksəlməsi, kəskin enməsi halları baş vermir. Sadəcə mövsümlə əlaqədar olaraq müəyyən kampaniyalar təşkil olunur və müxtəlif modellər daha ucuz qiymətə təklif edilir”.**



Ekspert bildirib ki, qanunvericilikdə olan bəzi dəyişikliklər zamanı qısa müddətdə hansısa modelin qiyməti çox az yüksələ bilir və yaxud da enə bilir: “Amma sonra bunu bazarın özü tənzimləyə bilir. Yəni hazırda bazarda vəziyyət stabildir və seçim də, çeşid də çoxdur. Sadəcə, mövsümlə əlaqədar olaraq avtomobil alıcıları bir qədər gözləmə mövqeyini tutublar. Çünki bazara vaxtilə bir qədər əlçatan qiymətə olan avtomobillər gətirildi və alıcılar daha ucuz avtomobillər əldə etmək üçün gözləmə mövqeyində dayandılar. Amma bu, baş vermədi. Çünki iri avtomobil istehsalçısı olan ölkələrdə də qanunvericilikdə müxtəlif dəyişikliklər oldu. Həmçinin daşınma qiymətlərinin sürətlə artması səbəbindən artıq qiymətlərin kəskin ucuzlaşmasını gözləmək olmaz”.

**Ekspert vurğulayıb ki, mövsümlə əlaqəli həmişə durğunluq olub:** “Amma bu vəziyyət qiymətlərə o qədər təsir etmir və hazırda biz may ayına qədəm qoymuşuq. May ayı avtomobil bazarının daha çox canlandığı bir aydır. İnsanlar daha çox may-iyun aylarında avtomobil almağa meyilli olurlar, həm də alqı-satqı prosesləri artır. Yəni bazarda fəallaşma hələ bundan sonra artacaq”.

**E.Cəfərov hesab edir ki, qiymətlərin kəskin artması və azalması gözlənilmir:** “Hazırda ölkəyə gətirilən yeni avtomobillərin qiymətində azalma yox, bir qədər yüksəlmə nəzərə çarpır. Biz təxminən 5-10% civarında yüksəlməni qeyd edə bilərik. Yeni modellər gəldikcə onların qiymətində dəyişiklik olur. Bu artım həm ixrac edən ölkələrdəki mövcud qanunvericiliklə bağlı olur, həm də Avropa İttifaqı ölkələrində hər il avtomobillərə qoyulan yeni tələblərlə bağlı olur. Bu tələblər texnoloji, təhlükəsizlik və keyfiyyət baxımdan irəli sürülür. Avtomobilə yeni texnologiyalar tətbiq olunursa, istər-istəməz avtomobilin qiymətinə təsir edir. Heç olmasa, həmin avtomobillərdə 5% civarında qiymət artımı olur”.

**❑ “Yeni Müsavat”**

# YENİ MÜSAVAT

Son səhifə

N 17 (8866) 6 may 2026


## Bunları bilirsinizmi?

Aprel

* Bu günə qədər yaşamış ən ağır çəkili adam 634 kq ağırlığındakı vaşinqtonlu Con Brouer Minnokdur.
* Bir adamın yaşaya bildiyi ən yüksək bədən hərarəti 46.5 dərəcədir. Normal hərarət isə 35-37 dərəcədir.
* ABŞ-də yaşları 20-29 arasında olan zənci kişilərin üçdə biri ya həbsdə, ya da nəzarətdə tutulmaqdadır.
* Qiymətli daşların çoxu bir neçə elementdən ibarət olur, yalnız brilyant tamamilə karbondan ibarətdir.
* Kişiləri ildırım vurması ehtimalı qadınlardan 6 dəfə daha çoxdur.
* İnsanların omba sümüyü betondan daha möhkəmdir.
* Bir insan gündə ən azı 500 litr oksigen istifadə edir.

# Çexiyada ev heyvanlarının öldürülməsi cinayət hesab edilacək



**Çexiya Nazirlər Kabineti ev heyvanlarının öldürülməsinin inzibati xəta kateqoriyasından çıxarılaraq cinayət məsuliyyəti yaradan əməllər sırasına daxil edilməsini nəzərdə tutan qanun layihəsini qəbul edib. Bu barədə ölkə baş nazirinin birinci müavini, sənaye və ticarət naziri Karel Havliçek məlumat verib. Yeni qanun layihəsinə əsasən, ev heyvanları ilə amansız rəftar edən şəxsləri ən azı bir il müddətinə azadlıqdan məhrumetmə cəzası gözləyir. Hazırda sənəd təsdiqlənmək üçün respublika parlamentinin Deputatlar Palatasına (aşağı palata) göndərilib.**

## Gündə bir dəfə qidalanma ciddi sağlamlıq problemlərinə yol açır - mütəxəssis rəyi



**“Gündə bir dəfə qidalanma orqanizmdə mənfi biokimyəvi dəyişikliklərə və fəaliyyət pozuntularına səbəb ola bilər”. Bu barədə sağlam qidalanma üzrə mütəxəssis Yekaterina Kim “RIA Novosti”yə müsahibəsində xəbərdarlıq edib. “Gündə bir dəfə yemək norma deyil. İnsanın zəif nöqtəsi haradırsa, pozuntular da məhz orada baş verəcək”, - deyə o bildirib. Ekspert arıqlamaq məqsədilə bu üsuldan istifadə etməməyə çağırıb.**

Y.Kim izah edib ki, orqanizm qida qəbulunun kəskin azaldılmasını stres kimi qəbul edir. Bu isə maddələr mübadiləsinin yavaşlamasına və daxil olan kalorilərin (enerjinin) ehtiyat kimi yığılmasına səbəb olur. Digər bir mənfi amil isə qidalanma rejiminin pozulmasından qaynaqlanan sinir gərginliyidir.

Mütəxəssisin sözlərinə görə, yaranan stres bədəndə tibbi müdaxilə tələb edə biləcək mənfi biokimyəvi dəyişikliklərə yol açır. O vurğulayıb ki, çəki itirmək prosesi tədricən və sistematik pəhriz dəyişiklikləri tələb edir. Ekspert xəbərdarlıq edib ki, qəfil məhdudiyyətlər çox vaxt yorğunluğa, pis əhvali-ruhiyyəyə, halsızlığa və qısa müddətdə yenidən çəki artımına səbəb olur.

## Televizora və telefona baxaraq yatmağın zərərləri

**Televizora və telefona baxaraq yatmaq müasir dövrdə bir çox insanın vərdişinə çevrilib. Lakin mütəxəssislər bu adətin sağlamlığa ciddi mənfi təsirlər göstərə biləcəyini bildirirlər. Araşdırmalara görə, xüsusilə gecə saatlarında telefon və ya televizor ekranından yayılan mavi işıq orqanizmdə yuxu hormonu olan melatoninin ifrazını azaldır. Bu isə yuxuya getməyi çətinləşdirir, yuxunun keyfiyyətini aşağı salır və nəticədə səhər yorğun oyanmağa səbəb olur. Uzun müddətdə bu hal xroniki yuxusuzluq probleminə gətirib çıxara bilər.**

Həkimlər bildirir ki, ekran qarşısında yatmaq yalnız yuxu rejimini pozmur, eyni zamanda beyinin fəaliyyətinə də təsir edir. Davamlı olaraq informasiyaya məruz qalmaq beyni aktiv vəziyyətdə saxlayır və onun tam istirahət etməsinə mane olur. Bu da diqqət dağınıqlığı, yaddaş zəifləməsi və gün ərzində məhsuldarlığın azalması ilə nəticələnə bilər.

Digər tərəfdən, telefonla yatmaq göz sağlamlığı üçün də risklidir. Qaranlıq mühitdə ekrana baxmaq gözlərdə quruluq, qızartı və görmə zəifləməsi kimi problemlər yarada bilər. Bundan əlavə, uzun müddət yanlış vəziyyətdə uzanaraq telefondan istifadə boyun və bel ağrılarına səbəb olur.

Psixoloqlar isə qeyd edirlər ki, sosial şəbəkələrdə və ya televiziya proqramlarında izlənilən məzmun bəzən stress və narahatlıq yarada bilər. Bu da insanın daha gərgin yatmasına və tez-tez oyanmasına səbəb olur.

Mütəxəssislər sağlam yuxu üçün yatmazdan ən azı 30-60 dəqiqə əvvəl telefon və televizordan uzaq durmağı, otaqda sakit və qaranlıq mühit yaratmağı tövsiyə edirlər. Alternativ olaraq kitab oxumaq və ya sakit musiqi dinləmək daha faydalı hesab olunur.

Qeyd edək ki, düzgün yuxu rejimi həm fiziki, həm də psixoloji sağlamlığın qorunmasında mühüm rol oynayır. Buna görə də gecə saatlarında ekran istifadəsini minimuma endirmək tövsiyə olunur.

## Çində üç ay komada olan qadın toyuna iki gün qalmış ayıldı



**Çində komaya düşən qadın toyuna iki gün qalmış ayılıb. Bu barədə “South China Morning Post” nəşri məlumat yayıb. Məlumata görə, Çin sakini nişanlısı ilə altı ildir münasibətdə olub və cütlüyün toyu aprelin 25-nə təyin edilib. 2026-cı ilin əvvəlində boğazında ağrı hiss edən qadın yerli klinikaya müraciət edib və orada ona iynə vurulub. Bildirilir ki, həkimlər xəstədən allergiyasının olub-olmadığını soruşmayıb və lazımi dəri sınağı keçirməyiblər.**

İynə vurulduqdan bir neçə dəqiqə sonra qadının dili keyiyib, o, qusmağa başlayıb və nəfəsi dayanıb. Hadisə yerinə gələn təcili yardım briqadası gəlinə anafilaktik şok diaqnozu qoyub. Nəticədə qadın komaya düşüb. Nəzərdə tutulan toy tarixindən cəmi 48 saat əvvəl gəlin 92 günlük komadan ayılıb. O, hələlik danışa və hərəkət edə bilməsə də, yaxınları onun ayılmasını möcüzə kimi qiymətləndiriblər. Hazırda hüquq-mühafizə orqanları hadisə ilə bağlı araşdırma aparır.

## Amsterdamda tarixi qadağa: ət reklamları yığışdırıldı



**Niderlandın paytaxtı Amsterdam şəhərinin rəhbərliyi ət və qazıntı yanacağı məhsullarının küçə reklamına tarixi qadağa tətbiq edərək, dünyada belə bir qərar qəbul edən ilk paytaxt olub. Bu barədə BBC telekanalı məlumat yayıb. Mayın 1-dən etibarən burger və aviabilet reklamları lövhələrdən, eləcə də avtobus dayanacaqlarından yığışdırılaraq muzey və konsert afişaları ilə əvəz olunub. Şəhər rəsmiləri izah ediblər ki, bu addım 2050-ci ilə qədər karbon neytrallığına nail olmaq planının tərkib hissəsidir. “Yaşıl sollar” partiyasının təmsilçisi Anneke Veenhoff bildirib ki, ictimai sahələri ekologiyanın “rəqiblərinə” icarəyə vermək iqlim siyasəti yürüdən liderlər üçün ziddiyyətli addım olardı.**

Qadağanın təşəbbüskarı olan “Heyvanlar üçün Partiya”nın üzvü Anke Bakker şəxsi həyata müdaxilə ittihamlarını rədd edib. Onun sözlərinə görə, hakimiyyət orqanları sadəcə böyük şirkətlərin insanların qidalanma və alış-veriş seçimlərinə diktə etməsinin qarşısını almağa çalışır. Beləliklə, şəhər sakinlərinə daimi vizual təzyiq olmadan real seçim azadlığı qaytarılır.

Niderland Ət İstehsalçıları Assosiasiyası bu addımı istehlakçılara qarşı arzuolunmaz təzyiq forması adlandırıb və onlara ətin sağlamlıq üçün faydalarını xatırladıb. Fəal Hanna Prins isə baş verənləri “tütün dövrü” ilə müqayisə edib. O qeyd edib ki, vaxtilə xərçəngdən vəfat edən futbolçu Yohan Kroyffun təsvir olunduğu siqaret reklamları belə normal hesab edilirdi, lakin zamanla bu yanaşma dəyişdi.

## Bir stəkan pivə sağlamlıq üçün faydalı imiş



**Araşdırmaya əsasən, hərdənbir bir stəkan pivə içməyin sağlamlıq üçün gözlənilməz faydaları ola bilər. Bir stəkan pivə gündəlik B6 vitamini ehtiyacının təxminən %15-ni qarşılaya bilir. Eyni effekt alkoqolsuz “lager” pivələrində də müşahidə olunur. Pivənin tərkibindəki B6 vitamini istehsalda istifadə olunan arpa, buğda və pivə mayasından gəlir. Bu vitamin beyin, qan və immunitet sistemi üçün faydalıdır.**

Almaniyada aparılan testlər nəticəsində ən yüksək B6 vitamini miqdarı “Bock” pivəsində tapılmışdır. Onu lager, tünd lager və buğda pivələri izləyir; düyü pivələri isə ən aşağı vitamin miqdarına malikdir. Britaniya Qidalanma Fondu qeyd edir ki, B6 vitamini ehtiyacını pivə əvəzinə digər qidalardan qarşılamaq daha məqsədəuyğundur. B6 vitamini çatışmazlığı nadir görülsə də, bu hal yorğunluq və ürəkbulanmaya səbəb ola bilər.

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dakika” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114

SAYI: 1.500